Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 264 (7991) CÜMƏ, 23 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Azərbaycan-Türkmənistan əməkdaşlığı regionda təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi








Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Türkmənistanın Dövlət himnləri səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkmənistanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi. Sonra Azərbaycan və Türkmənistan prezidentləri süvari dəstənin müşayiəti ilə Oğuzxan adına saray kompleksinə gəldilər.

Prezidentlər rəsmi foto çəkdirdilər.

## Azərbaycan Respublikasının ədliyyə işçilərinə və hakimlərə

Hörmətli ədliyyə işçiləri və hakimlər!

Sizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi 1918-ci ildə təsis edilmiş Azərbaycan ədliyyəsi bir əsrlik mürəkkəb və şanlı inkişaf yolu keçmişdir.

Azərbaycanda ədliyyə sisteminin intibahı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, bir neçə dəfə ləğv edilmiş Ədliyyə Nazirliyinin fəaliyyəti məhz Ulu Öndər tərəfindən 1970-ci ildə bərpa edilmiş, zəruri normativ sənədlər qəbul olunmuş və milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikası müstəqilliyini qazandıqdan sonra Ümummilli Liderin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, müasir məhkəmə sistemi yaradılmış, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımlar atılmışdır.

Azərbaycanda ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər bu gün də davam etdirilməkdədir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın təmin edilməsi məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncam imzalanmış, test üsulu ilə şəffaf prosedurlar əsasında yeni hakim korpusu formalaşdırılmış, ədliyyə orqanlarının işi və göstərdiyi hüquqi xidmətlər yeni tələblər səviyyəsində qurulmuşdur. Son illərdə hakimlərin sayı əhəmiyyətli dərəcədə artırılmış, müasir məhkəmə kompleksləri inşa edilmiş, ədliyyə orqanları və məhkəmələrin maddi-texniki bazası gücləndirilmişdir.

Əminəm ki, ədliyyə və məhkəmə işçiləri qanunun aliliyinin, hər kəsin qanun qarşısında bərabərliyinin təmin olunması, vətəndaşların hüquqlarının qorunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirərək Azərbaycan ədliyyəsinin inkişafına öz töhfələrini verəcəklər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2018-ci il*

## Cəbhə bölgəsinə xüsusi dəstək var

Prezident İlham Əliyev cəbhə bölgələrinə diqqətin dövlət üçün prioritet olduğunu dəfələrlə konkret əməllə sübut etmişdir. Bu diqqətdən Tərtərə və tərtərlilərə də yetərincə pay düşmüşdür. Dövlət başçısının bölgəyə vaxtaşırı səfərləri artıq ənənəyə çevrilmişdir.



Bu səfərlər rayonun dinamik sosial-iqtisadi inkişafına güclü təkan vermiş, rayon əhalisinin sosial müdafiəsinin güclənməsinə səbəb olmuşdur. Yeni yollar, körpülər, qaçqın və məcburi köçkünlər üçün inşa edilən yaşayış məhəllələri, məktəblər, uşaq bağçaları, müxtəlif sosial obyektlər - həmin səfərlərin yaddaqalan ünvanlarıdır.

Artıq 2018-ci il başa çatmaq üzrədir. Uğurlu illər sırasına daha biri də əlavə olunur. Dövlət başçısının sərəncamına uyğun olaraq, bu il Tərtər şəhərində çoxmənzilli 20 yaşayış binası təmir olunmuş, 21,5 kilometrlik Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı kəndlərarası avtomobil yolunun əsaslı təmiri və yenidən qurulması başa çatdırılmışdır. Tərtər-Hindarx yolunun Tərtər rayonu ərazisindən keçən 21 kilometrlik hissəsində əsaslı təmir, eləcə də Olimpiya İdman Kompleksinin, Xalça istehsalı emalatxanasının, Bayraq muzeyinin və şəhərdəki 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi isə davam edir. Şəhər 6 saylı tam orta, Qazyan kənd ümumi orta məktəblərin binaları, Seydimli kənd tam orta məktəbin bir korpusu da əsaslı təmir olunmuş, Bayandur və Poladlı kəndlərində modul tipli məktəblər istifadəyə verilmişdir.

Tikinti, abadlıq-quruculuq işləri ilə yanaşı, cəbhə bölgəsi kimi rayon ərazisinin təhlükəsizliyinin təmin edilməsinə də böyük önəm verilir. Təkcə cari ildə Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik tərəfindən aparılmış əməliyyatlar nəticəsində 641939 kvadratmetr ərazidə 397 mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilmişdir.

Rayonda ekoloji tarazlığın qorunması, yeni yaşıllıqların salınması da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Bərdə, Ağdam və Gəncə istiqamətlərində yol kənarlarında, meşə zolaqlarında 26,5 mindən çox müxtəlif növ ağac, 4 min gül kolu və 500 min həmişəyaşıl kol əkilmişdir.

Kənd təsərrüfatı rayonu olan Tərtərdə cari ilin ötən dövründə məhsul istehsalı sahəsində böyük artım qeydə alınmışdır. Keçən il ölkənin pambıqçılıq rayonları arasında ən yüksək məhsuldarlığa nail olan Tərtər fermerləri bu il də ön mövqedədirlər.

***Ardı 6-cı səh.***



## Qeyri-neft sektorunun inkişaf dinamikası davam edir

### Bu sektorda həm məhsul istehsalı, həm də ixracı yüksək templə artır

Dövlət Statistika Komitəsi bu ilin 10 ayı üzrə ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri barədə hesabatını açıqlayıb. Hesabatda bildirilir ki, sözügedən dövrdə ölkə üzrə 65 milyard 233 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur.

Bu isə ötən ilin eyni dövründəkindən 0,8 faiz çoxdur. 10 ay ərzində ÜDM istehsalı iqtisadiyyatın qeyri-neft sektorunda 1, neft sektorunda 0,3 faiz artmışdır.

Hesabata görə, 10 ay ərzində istehsal olunmuş əlavə dəyərin 45,7 faizi sənaye, 9,4 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,5 faizi tikinti, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə, 14,7 faizi digər sahələrin payına düşmüşdür.

***Ardı 6-cı səh.***

# Azərbaycan-Türkmənistan əməkdaşlığı regionda təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır

*Qurbanqulu BERDİMƏHƏMMƏDOV:*

## "Xalqlarımızın qədim, zəngin mənəvi ənənələri var"



Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

Türkmənistan Prezidenti **Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş qonşu ölkəyə - qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Sizin nümayəndə heyətinin üzvlərinə təşəkkür edirik.

Bildiyiniz kimi, Türkmənistan və Azərbaycan xalqlarının qədim, zəngin mənəvi ənənələri olub. Yəni, biz həmişə, bütün dövrlərdə çox böyük potensiala və imkanlara malik olmuşuq. Sevindirici haldır ki, həm Türkmənistan, həm də Azərbaycan müasir mərhələdə həmin potensialdan istifadə edir. Biz bunu siyasi arenada, iqtisadi məsələlərimizdə, bir sıra başqa sahələrdə görürük. Bu baxımdan bizim güclü ehtiyatımız var. Biz bu ehtiyatdan həm xalqlarımızın rifahı naminə, həm də regional və beynəlxalq səviyyədə istifadə edə bilərik. Ən başlıcası odur ki, biz bütün bunlardan istifadə edirik. Biz Birləşmiş Millətlər Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumların üzvləriyik. Vurğulamaq istərdim ki, bu gün Türkmənistan və Azərbaycan BMT-nin Davamlı İnkişaf Məqsədlərini həyata keçirir. Bizdə təkcə regionda deyil, bütün dünyada sabitlik və təhlükəsizlik kimi məsələlərə ortaq münasibət var. Onu demək istərdim ki, biz öz imkanlarımızı nəzərə alaraq regional və beynəlxalq səviyyədə iqtisadiyyat və iqtisadi inteqrasiya sahələrində əməkdaşlıq potensialından istifadə edə bilərik. Buna görə biz əlbəttə ki, Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Artıq qeyd etdiyim kimi, bizim çox yaxşı imkanlarımız var. Bizim köklərimiz, tariximiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz ortaqdır. Biz çox haqlı olaraq vətənpərvərlik göstərir, bu dəyərlərin böyüməkdə olan nəslə ötürülməsi işinə incəsənət xadimlərini, yaradıcı ziyalıları cəlb edirik.

Gördüyünüz kimi, bu gün təkcə Sizinlə bizim aramızda, iki dövlət arasında deyil, həm də region və dünya miqyasında çox iş görülür. Buna görə fürsətdən istifadə edib Sizə təşəkkürümü bildirmək istərdim, ilk növbədə, ona görə ki, Siz Türkmənistan ilə Azərbaycan arasında dostluq tellərinin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm. Bu gün Sizi burada görməyə bir daha şadıq. Xoş gəlmisiniz.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli cənab Prezident.

Mən, ilk növbədə, qardaş Türkmənistana səfərə dəvətə görə Sizə təşəkkür etmək istərdim. Dünən Sizin torpağa qədəm qoyduğum andan özümü öz evimizdəki kimi hiss edirəm. Bu, qardaş türkmən xalqının qonaqpərvərliyi, şəxsən Sizin qonaqpərvərliyiniz sayəsindədir.

Azərbaycanda Sizi ölkəmizin böyük dostu kimi tanıyırlar. Siz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün çox iş görürsünüz. Fürsətdən istifadə edib Sizi və Türkmənistanın bütün qardaş xalqını inkişafda qazandığınız böyük nailiyyətlərə, Türkmənistanın beynəlxalq aləmdə rolunun möhkəmlənməsinə, milli-mənəvi dəyərlərə çox diqqət yetirməyinizə və xalqınızın ənənələrini qoruyub saxlamağınıza və bunları yeni nəsillərə ötürməyinizə görə təbrik etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim ortaq köklərimiz var və bu, bizi birləşdirir. Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik. Buna görə düşünürəm ki, mənim səfərim bizim qardaşlıq münasibətlərimizin möhkəmlənməsi işinə xidmət edəcək.

Mən Sizinlə razıyam ki, ölkələrimiz regional əməkdaşlıq, regionda təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də mühüm rol oynayır. Sabitliyin, inkişafın yüksək səviyyəsi bizim ölkələri fərqləndirir. Siz çox düzgün qeyd etdiniz ki, ölkələrimiz BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində dəyişiklikləri fəal həyata keçirirlər. Biz əksər göstəricilər üzrə nəzərdə tutulanları nəinki yerinə yetirmişik, hətta artıqlaması ilə yerinə yetirmişik. Türkmənistana gələn, Sizin ölkənizin necə inkişaf etdiyini, vətəndaşlar üçün necə şərait yaradıldığını, iqtisadiyyatın, sənaye potensialının necə artdığını görən hər kəs bunu yəqin edir.

Azərbaycanda biz Sizin uğurlarınıza sevinirik. Biz əminik ki, qardaş Türkmənistan xalqı Sizin müdrik rəhbərliyinizlə bundan sonra da tərəqqi yolu ilə irəliləyəcək. Əlbəttə, belə yaxşı imkanlardan istifadə etməklə əməkdaşlığı möhkəmlətmək lazımdır. Biz məhz bununla məşğuluq və əminəm ki, səfər bu istiqamətdə çox səmərəli olacaq. İqtisadi sahədə qarşılıqlı fəaliyyət, nəqliyyat sahəsində əməkdaşlıq, sənaye kooperasiyası - müzakirə üçün mövzu çoxdur. Əminəm ki, biz qarşıya qoyulmuş hədəflərə nail olacağıq. Səmimi qəbula və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm.

## Hər iki ölkənin yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirmələri getdikləri yolun düzgünlüyündən xəbər verir

Noyabrın 22-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

Türkmənistan Prezidenti **Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edim. Əlbəttə, Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim mehriban qonşuluğumuzun, qarşılıqlı hörmətin, beynəlxalq aləmdə, ticari-iqtisadi əməkdaşlıq məsələlərində və mədəni-humanitar sahədə təsəvvürlərimizin şaxələndirilməsinin məntiqi davamıdır.

Xarici siyasət məsələlərinə gəldikdə, bizim prinsiplərimiz şübhəsiz ki, oxşardır və ya üst-üstə düşür. Yəni, biz həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanmasına tərəfdarıq. Sizə təşəkkür edirik ki, beynəlxalq aləmdə Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri dəstəkləyirsiniz. Əlbəttə, biz bütün məkanlarda, BMT və ATƏT kimi nüfuzlu qurumlarda, beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Mənim fikrimcə, bu da çox düzgündür. Əlbəttə, tərəfdaşlıqda elə məsələlər var ki, biz onlara da münasibət bildirməliyik. Terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transsərhəd cinayətkarlıq kimi təhdidlər və çağırışlar bu qəbildəndir. Buna görə də biz, əlbəttə ki, belə təhdidlərə qarşı mübarizəni bundan sonra da davam etdirəcəyik.

Demək istərdim ki, Xəzər dənizi də bizi birləşdirir. Bu yaxınlarda Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusu barədə konvensiyanı qəbul etdilər. Buna görə bizim üçün burada da, o cümlədən mehriban qonşuluq məsələlərində çox böyük imkanlar yaranır. Başlıca məsələ odur ki, biz hamımız eyni fikirdəyik - Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir və biz bundan sonra da fəaliyyətimizi bu ruhda davam etdirəcəyik.

Bizim ticari-iqtisadi məsələlərimizə gəldikdə, iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya fəaliyyət göstərir və buna görə Sizə təşəkkür edirik. Sevindirici haldır ki, bu ilin 9 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artıb. Kənd təsərrüfatı, tikinti, sənaye kimi sahələrdə yaxşı meyillər yaranıb. Azərbaycanın yeni texnologiyaları, əlbəttə ki, bizi cəlb edir. Hər halda, bütün dünya rəqəmsal texnologiyalara, rəqəmsal iqtisadiyyata keçir. Buna görə də biz gələcəkdə də bu ruhda davam edəcəyik.



Əlbəttə ki, nəqliyyat məsələlərini, yəni, məhz tranzit nəqliyyat dəhlizlərinin inkişafı və onun logistikasının düzgünlüyünün müəyyənləşdirilməsini qeyd etmək istərdim. Bilirsiniz, Sizinlə bizim - Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropaya çıxışla bağlı nümunəvi təcrübəmiz və imzalanmış razılaşmalarımız çoxdur. Mən xatırlatdım ki, biz bu gün TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, TİR kimi beynəlxalq qurumlarla yaxşı əlaqələrə malikik və bu, böyük əhəmiyyət kəsb edir. Sizin Bakı-Tbilisi-Qars kimi çox yaxşı infrastrukturunuz var. Görürsünüz, bizdə nümunələr çoxdur. Ona görə də biz düzgün logistikamızı həm avtomobil, dəmir yolu, həm də bərə nəqliyyatı üzrə inkişaf etdirə bilərik. Sizin dəmir yolu üçün güclü bərə nəqliyyatınız var. Bu, bizdə Ro-Ro tipli avtonəqliyyat üçün oxşar variantdır. Düşünürəm ki, biz bu fəaliyyəti düzgün logistikamızla da gücləndirə bilərik. Hərçənd yadımdadır, Siz Xəzəryanı ölkələrin dövlət başçılarının Sammitində də bu variantı təklif etdiniz - Xəzəryanı dövlətlər arasında düzgün logistika yaradılsın və bu müşavirə məhz Bakıda keçirilsin. Fikrimcə, biz bu məsələnin əməkdaşlığa dair ikitərəfli dialoq çərçivəsində müzakirəsinə artıq başlamışıq.

Energetika məsələləri. Bizim çox güclü ehtiyat potensialımız var. Buna görə də biz bu məsələlərdə enerji inteqrasiyasının tərəfdarıyıq. Təkcə bizim ölkələrimiz üçün yox, həm də regional səviyyədə beynəlxalq bazarlara birgə çıxa bilərik. Düşünürəm ki, bu cəhətdən biz yaxşı əməkdaşlıq edə bilərik. Yəni, gördüyünüz kimi, bizdə müxtəlif sahələrin elə mənzərəsi və aspekti var ki, ölkələrimiz arasında əmtəə nomenklaturunu genişləndirə bilərik. Buna görə də mən bir daha qeyd edim ki, burada iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiya bilavasitə rol oynayır. Yəni, biz onun iclasını azı ildə bir dəfə keçirməliyik, çünki bir qədər fasilə yaranıb, amma bəzi məsələlər, necə deyərlər, təcili həllini tələb edir.

Əlbəttə ki, mədəni-humanitar sahə əməkdaşlığın ayrılmaz tərkib hissəsidir. Bizi çox sevindirir ki, ortaq köklərimiz, mənşəyimiz, ənənələrimiz, milli xüsusiyyətlərimiz var. Biz müasir mərhələdə təhsil, elm, turizm sahələrinin, idmanın inkişafı məsələlərinə böyük əhəmiyyət veririk. Bu gün əlbəttə ki, bunlar da lazımdır, çünki onların hamısı böyüməkdə olan gələcək nəsil üçün həm vətənpərvərlik, həm də ideoloji cəhətdən bizim əcdadlarımızın vəsiyyətləridir. Bilirəm ki, Siz xalçaçılıq məsələlərinə böyük diqqət yetirirsiniz. Dediyim kimi, biz də bu sahəyə böyük diqqət yetiririk. Məncə, biz hətta Bakıda olanda təklif etmişdik ki, həm bizdə, həm sizdə xalça sərgiləri təşkil olunsun. Bu halda beynəlxalq səviyyəyə çıxmaq və ya bizim xalçalara aid beynəlxalq konfrans keçirmək olardı. Yəni, gördüyünüz kimi, biz qarşılıqlı hörmət və etimad fonunda bu cür ikitərəfli əməkdaşlığa meyilliyik. Buna görə də mən bir daha Sizə bu səfərinizə görə təşəkkür etmək istərdim. Çünki Sizin səfəriniz şübhəsiz ki, bu gün müzakirə etdiyimiz məsələlərə daha artıq güc, mən deyərdim ki, yaxşı təkan verəcək.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizin nümayəndə heyətinizin üzvlərinə, əlbəttə ki, qardaş Azərbaycan xalqına ən yaxşı arzularımı bildirirəm. Sizə təşəkkür edirəm.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Sağ olun, əziz Qurbanqulu Məlikquliyeviç.

Mən, ilk növbədə, qonaqpərvərliyə, dəvətə, səmimi qəbula görə təşəkkür etmək istərdim. Mən yenidən qardaş Türkmənistan torpağında olmağıma şadam.

Mən dünən ölkənizin nailiyyətləri ilə tanış olmaq imkanı qazandım və bu, Türkmənistanın inamlı müsbət inkişafının nümayişidir. Şəxsən Sizi və bütün Türkmənistan xalqını quruculuq yollarında böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm.

Biz də səfərə böyük əhəmiyyət veririk və səfər çox yaxşı hazırlanıb. Səfərin yekunları üzrə xeyli sənədin imzalanacağı nəzərdə tutulub. Əminəm ki, onlar vaxtında reallaşacaq və bununla da bizim əməkdaşlığımız üçün daha yaxşı şərait yaranacaq.

Biz Türkmənistanla əməkdaşlığa böyük əhəmiyyət veririk. Siz qeyd etdiyiniz kimi, bizim ümumi köklərimiz, tariximiz, xalqlarımızın yaxınlığı elə bir bünövrədir ki, onun üzərində öz birgə gələcəyimizi qururuq. Həm də təsadüfi deyil ki, biz beynəlxalq qurumlarda birgə fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İkitərəfli planda əməkdaşlıq potensialını gücləndiririk və bütün bunlar sabitliyə doğru aparır, regional təhlükəsizliyi möhkəmləndirir. Bu gün regional təhlükəsizliklə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Biz görürük ki, dünyanın müxtəlif guşələrində toqquşmalar, qanlı hadisələr baş verir, dövlətlərin təməlini sarsıdan proseslər gedir. Buna görə də düşünürəm ki, belə mürəkkəb vəziyyətdə həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın istiqamətləri çoxdur. Əminəm ki, indiyədək olduğu kimi, gələcəkdə də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu gün biz artıq təkbətək görüşdə əməkdaşlığın xeyli mühüm məsələlərini müzakirə etmişik və nümayəndə heyətləri çərçivəsində də müzakirələri davam etdirəcəyik. Biz gələcək əməkdaşlığın əsas istiqamətlərini, prioritetlərini qeyd etdik. Hesab edirəm ki, əmtəə dövriyyəsinin artırılması məsələsində çox iş görmək olar. Əmtəə dövriyyəsi artsa da, fikrimcə, hələlik ölkələrimizin potensialını tam əks etdirmir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri Türkmənistan mallarının Azərbaycana, Azərbaycan mallarının isə Türkmənistana ixracını necə artıra biləcəyimizi konkret müzakirə etmək imkanına malik olacaqlar. Əlbəttə ki, bu mövzu hökumətlərarası komissiyanın işi çərçivəsində də prioritet məsələlərdən biri olmalıdır. Razıyam ki, iclaslar arasında müəyyən fasilə olur. Hesab edirəm ki, yaxın vaxtlarda artıq əldə olunan razılaşmaların yerinə yetirilməsi proqramını işləyib hazırlamaq məqsədilə mənim səfərimin yekunlarına əsasən operativ iclas keçirmək mümkün olacaq.

Artıq dediyim kimi, bu gün xeyli sənəd imzalanacaq. Onlar inkişaf istiqamətlərini müəyyənləşdirir, amma həmin məsələlərin reallaşdırılması üzrə fəaliyyət planının olması da zəruridir.

Həm Türkmənistan, həm də Azərbaycan böyük təbii ehtiyatlara malik ölkələrdir. Əlbəttə ki, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq təbiidir. Azərbaycan Türkmənistanın enerji ehtiyatları üçün tranzit imkanlar təqdim edir. Biz şadıq ki, Türkmənistan nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql edilərək əməkdaşlığımızı möhkəmləndirir. Əlbəttə, bizim münasibətlərimizin əsas mövzularından biri nəqliyyat sahəsidir. Təsadüfi deyil ki, mənim nümayəndə heyətimin tərkibində Azərbaycanın bütün nəqliyyat qurumlarının rəhbərləri var. Onlar artıq türkmənistanlı həmkarları ilə fəal işləyirlər. Biz bu gün Sizinlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın bu məsələlərini də müzakirə etmişik. Yəni, biz bu sahədə bütün ölkələrə və xalqlara fayda gətirəcək çoxtərəfli regional əməkdaşlıq üçün çox yaxşı perspektivlər görürük. Belə ki, mən bizim söhbətimizdən çox məmnunam və düşünürəm ki, səfərin nəticələri də çox müsbət olacaq, ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcək.

Qonaqpərvərliyə görə bir daha sağ olun, Sizə möhkəm cansağlığı, gələcək uğurlar, qardaş Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram. Sağ olun.

# Azərbaycan-Türkmənistan sənədləri imzalanıb

Noyabrın 22-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

"Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdı Toylıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı"nı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın təhsil naziri Mammetmırat Geldiniyazov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov və Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyinin sədri Aleksandr Dadayev imzaladılar.



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair Saziş"i "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Azat Atamıradov imzaladılar.

"Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş"i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və Türkmənistanın Dövlət Gömrük Xidmətinin rəisi Atadurdı Osmanov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Türkmənistan Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Baba Zaxırov imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitet arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitetinin rektoru Esen Aydoqdıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş"i Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzaladılar.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında dəniz ticarət gəmiçiliyinin inkişafına dair Saziş"i "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında avtomatlaşdırılmış informasiya mübadiləsi haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

*Ardı 3-cü səh.*

# Azərbaycan-Türkmənistan əməkdaşlığı regionda təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır

## Azərbaycan-Türkmənistan sənədləri imzalanıb



*Əvvəli 2-ci səh.*

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükaşırma həcmlərinin artırılması haqqında Saziş"i "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanlarından keçən daşımaların inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında Saziş"i Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın avtomobil nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın sənaye naziri Xoşgeldi Mergenov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üzrə ticarət-iqtisadi əməkdaşlıq Proqramı"nı Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında uzunmüddətli ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın ticarət və xarici iqtisadi əlaqələr naziri Amandurdı İşanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Batır Bazarov imzaladılar.

# İlham ƏLİYEV: "Bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq"

***Noyabrın 22-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər.***

***AZƏRTAC xəbər verir ki, əvvəlcə Türkmənistan Prezidenti bəyanatla çıxış etdi.***

## Prezident Qurbanqulu Berdiməhəmmədovun bəyanatı



- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Mən, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və onun nümayəndə heyətinin üzvlərinə dərin təşəkkürümü bildirmək istərdim ki, dəvətimizi qəbul edib mehriban qonşunuz, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəlmisiniz. Buna görə biz sizə bir daha minnətdarıq.

Demək istərdim ki, biz bu gün çox yaxşı, konstruktiv danışıqlar apardıq. Prinsipcə, bizim ikitərəfli münasibətlərimizin bütün aspektlərini, yəni, onların cari və perspektiv vəziyyətini, regional və beynəlxalq siyasətə dair məsələləri nəzərdən keçirdik. Mən dərhal demək istəyirəm ki, bizim - həm Türkmənistanın, həm də Azərbaycanın beynəlxalq məsələlər barədə baxışları eynidir, yaxud bənzərdir. Bunlar həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması məsələləridir. Buna görə də bu gün biz beynəlxalq aləmdə xarici siyasi kursumuzdan, yəni, Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüslərini daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik.

Onu da demək istərdim ki, bu gün biz həm də bizi birləşdirən ümumi məsələlərimiz üzrə fikir mübadiləsi apardıq. Bu, Xəzər dənizi məsələsidir. Bildiyiniz kimi, bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya qəbul olunub. Biz həmişə bildiririk ki, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. Buna görə də biz gələcəkdə də, əlbəttə, öz siyasətimizi aparacağıq.

Bu gün biz ticari-iqtisadi məsələlərdən danışarkən çox böyük aspekti, yəni, yaxşı təmasa malik olduğumuz sahələri - kənd təsərrüfatını, tikintini, sənayeni, yeni texnologiyaları nəzərdən keçirdik. Nəqliyyat məsələlərinə, məhz nəqliyyat-tranzit dəhlizlərinin və düzgün logistikanın tərtib olunmasına toxunduq. Əlbəttə, əsas məsələlər energetika məsələləri idi. Yəni, bu məsələdə biz həmişə həmrəyik. Biz enerji resurslarımızı həm regional, həm də beynəlxalq bazarlara çıxarmaq imkanına malikik. Bu baxımdan mən, əlbəttə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın fəaliyyətinə görə minnətdar olmaq istərdim. Həmin komissiya çox iş görür və yəqin ki, gələcəkdə də görəcək.

Mədəni-humanitar sahədən danışarkən, əlbəttə ki, bu, bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki həm Türkmənistan, həm də Azərbaycan, bizim xalqlarımız vahid köklərə, adətlərə, milli xüsusiyyətlərə, ənənələrə malikdir. Əlbəttə, bizim üçün sevindiricidir ki, biz müasir mərhələdə də gələcək gənc nəslin vətənpərvər ruhda böyüməsi naminə bu işi davam etdiririk. Buna görə də biz bu sahə haqqında bu kontekstdə danışarkən, bu gün bizim üçün mühüm olan tətbiqi sənət, yəni, xalçaçılığa toxunduq. Həm Türkmənistan, həm də Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Biz bu fikrə gəldik ki, həm Türkmənistanda, həm də Azərbaycanda xalça sərgisi təşkil etmək, həmçinin gələcəkdə beynəlxalq konfransın keçirilməsi haqqında düşünmək yaxşı olardı.

Gördüyünüz kimi, biz bugünkü görüşdə çox geniş əhatəli məsələləri nəzərdən keçirdik, xeyli sənəd və saziş imzaladıq.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, buna görə də mən sizin diqqətinizi iki məsələyə yönəltmək istərdim. Birincisi, nəqliyyat məsələləridir. Biz dedik ki, tranzit dəhlizləri inkişaf etdirmək, düzgün logistika tərtib etmək istərdik. Bu, avtomobil və bərə nəqliyyatına, hava məkanına, dəmir yollarına aiddir. Ən başlıcası odur ki, indi bizim aramızda məhz nəqliyyat-tranzit dəhlizləri və logistikanın inkişafı məsələləri ilə məşğul olacaq xüsusi komissiya fəaliyyət göstərəcək.

Türkmənistanla Azərbaycan arasında xeyli nümunəvi cəhətlər var. Biz Əfqanıstan, Türkmənistan, Azərbaycan və Türkiyə arasında Avropaya çıxışla bağlı nəqliyyat sazişi imzaladıq. Bu, artıq Şərq-Qərb xəttinə aiddir, ya da biz burada bütün Orta Asiyanı Avropa ilə birləşdiririk. Biz istər beynəlxalq siyasətə, istərsə də başqa istiqamətlərə aid bütün məsələlərdə ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəli addımlar atırıq. İndiki halda biz Bakı-Tbilisi-Qars kimi yaxşı infrastrukturun olduğu TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı xətti ilə gedə bilərik. Belə nümunələr çoxdur. Bunun əsasında noyabrın 28-də böyük beynəlxalq konfrans keçirəcəyik. Düşünürəm ki, bu gün biz həmin iştirakçı ölkələrin üzvlərinə müəyyən güzəştlər edə bilərdik. Deyək ki, güzəştli tariflər və sair. Burada əsas məsələ düzgün logistikanı inkişaf etdirməkdən ibarətdir.

Demək istədiyim ikinci məsələ odur ki, biz bu gün sənədlər paketi ilə yanaşı, 2019-2021-ci illər üçün ticari-iqtisadi sahənin inkişafı haqqında da əməkdaşlıq proqramı qəbul etdik. Yəni, bu, bir daha ondan xəbər verir ki, biz gələcəkdə də əmtəə nomenklaturamızı inkişaf etdirə bilərik. Hərçənd indi bizdə çox yaxşı tendensiya gedir, yəni, biz artıq öz statistikamızı bildirdik. Qeyd etdik ki, hər il müəyyən faiz artım var, deyək ki, əvvəlki illə müqayisədə 17 faiz artım olub. Biz elə bu ruhda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyamıza üstünlük veririk. Buna görə də mən xüsusi qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən yüksək hörmət və qarşılıqlı etimad fonunda keçib. Ən əsası gələcək əməkdaşlığa doğru yaxşı meyil var. Buna görə də mən fürsətdən istifadə edərək Azərbaycan Respublikasının hörmətli Prezidentinə onun şəxsi töhfəsinə, bizim xalqlarımız və ölkələrimiz arasında dostluq tellərinin möhkəmlənməsi üçün etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əlbəttə, ali dövləti fəaliyyətində böyük uğurlar, bütün qardaş Azərbaycan xalqına isə ən yaxşı rifah və tərəqqi arzulayıram. Diqqətə görə təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Prezident.

Hörmətli dostlar.

Mən Türkmənistan Prezidentinə, mənim əziz dostuma dəvətə, çox səmimi qəbula, qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Mən dünəndən qardaş Türkmənistan torpağındayam. Türkmənistanın sosial-iqtisadi inkişafındakı nailiyyətlərlə tanış olmaq imkanına malik oldum. Biz sizin uğurlarınıza da öz nailiyyətlərimiz kimi sevinirik. Fürsətdən istifadə edərək bütün Azərbaycan xalqı adından qardaş türkmən xalqına salamlarımı çatdırmaq istəyirəm. Bizi tarix, mədəniyyət, ümumi köklər, ənənələr, dünyagörüşü birləşdirir. Bu, həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir.

Səfər sona yaxınlaşır. Artıq bu gün, demək olar ki, bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq. Bu münasibətlərin çox böyük potensialı var. Bu gün aparılan danışıqlarda, prezidentlər arasında təkbətək formatda, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə aparılan fikir mübadiləsi zamanı biz əməkdaşlığımızın mühüm məsələlərini müzakirə etdik. Biz görülən işlərə yekun vurduq və gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Bu gün 20-dən çox sənəd imzalanıb və onların hər birinin olduqca konkret xarakteri var. Bu, bizim münasibətlərimizin, əməkdaşlıq həcminin və nailiyyətlərimizin, bir-birimizə qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə həyat fəaliyyətinin bu cür müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Biz gələcəkdə də bir-birimizə beynəlxalq qurumlarda, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşdıq. Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu, artıq adi hala çevrilib. Amma bu, bizim münasibətlərimizin səmimiliyini göstərir.

Türkmənistan Prezidenti artıq gündəlikdə olan əsas məsələlər barədə danışdı. Öz tərəfimdən qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üzərində fəal işləyəcəyik. Biz ölkələrimiz arasında fəaliyyət göstərən hökumətlərarası komissiyaya müvafiq tapşırıqlar vermişik ki, onlar Azərbaycandan Türkmənistana və Türkmənistandan Azərbaycana ixracı artırmaq üzrə işi fəallaşdırsınlar. Malların konkret siyahısı var və qurumların müvafiq rəhbərləri bu məsələləri müzakirə edirlər. Fikrimcə, əgər biz konkret istiqamətlərə diqqəti yönəltsək, qısa müddət ərzində əmtəə dövriyyəmizi daha da artıra bilərik.

Türkmənistan Prezidenti hörmətli Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovun dediyi kimi, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə böyük yer ayrılıb. Səfər ərəfəsində bizim nümayəndə heyətlərimiz fəal işləyiblər, bir neçə raund danışıqlar aparıblar və Şərq-Qərb beynəlxalq dəhlizinin fəaliyyətinin əsas məsələlərini razılaşdırıblar. Türkmənistan və Azərbaycan öz tərəflərindən əvvəlki illərdə müasir nəqliyyat infrastrukturunun yaradılması və logistika imkanları üçün böyük iş aparıblar. Biz əvvəlcədən razılaşmamışdıq, amma belə alındı ki, paralel yollarla getdik. Bu da təbiidir, çünki bu, ölkələrimiz və xalqlarımız üçün zəruri olan məsələdir. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda - may ayında baş verib. Hərə öz ərazisində bu layihələrə sərmayə qoymağa başlayanda biz uzaqgörənliklə hərəkət etdik. Bu gün biz ticarət limanlarımızın tam inteqrasiyası haqqında danışırıq, müvafiq sənəd bu gün imzalanıb. Bu, bizim ölkələrimiz üçün əmtəə dövriyyəsini və tranzit daşımaları artırmaq imkanları yaradır. Biz qonşularımız üçün də böyük potensial yaradırıq. Bizim mühüm nəqliyyat qovşaqları kimi gələcək uğurlu inkişafımız regional vəziyyətdən də asılıdır. Buna görə də bizim qonşularımızla yaxşı münasibətlərimiz regionda təhlükəsizliyi, sabitliyi möhkəmləndirir, eləcə də Azərbaycanla Türkmənistanı mühüm nəqliyyat qovşaqlarına çevirir.

Müasir infrastruktur, nəqliyyat sahəsinə böyük sərmayələr işləmək üçün gözəl şərait yaradır. Rəqəmləri göstərmək istəmirəm, amma əminəm ki, yaxın vaxtlarda biz Türkmənistanla Azərbaycan arasında yük axınının xeyli artımını görəcəyik. Bakının Beynəlxalq Ələt Ticarət Limanında Türkmənistandan əlavə yüklərin qəbulu üçün xüsusi yer ayrılır və biz sözsüz ki, Şərq-Qərb, Qərb-Şərq marşrutları üzrə ölkələrimiz arasında tranzit yüklərin həcminin artdığını görəcəyik.

Ötən il o vaxta qədər mövcud olmayan və dünya bazarlarına çıxış əldə etmək üçün son əlaqələndirici bənd olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bu, dünya bazarlarına çıxmaq üçün daha bir əlavə marşrutdur. Əminəm ki, bu marşrut ölkələrimizə böyük mənfəət gətirəcək, bütün nəqliyyat razılaşmaları paketi regionda təhlükəsizliyi möhkəmləndirəcək. Çünki nəqliyyat sahəsi yeni iş yerlərinin yaradılmasına, iqtisadi fəallığa, Böyük İpək yolu üzərində yerləşən ölkələrin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq. Bununla da sabitlik və təhlükəsizlik möhkəmlənəcək.

Biz bu gün ikitərəfli münasibətlərin ən mühüm konkret məsələlərini, regional əməkdaşlıq üçün yeni şərait yaradan məsələləri həll etdik. Buna görə də hesab edirəm ki, səfər bizim gələcək qarşılıqlı fəaliyyətimiz, Türkmənistanla Azərbaycan arasında ənənəvi qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edəcək, regionumuzun ölkələri arasında yeni daha yaxşı şərait yaradacaq.

Fürsətdən istifadə edərək qardaş Türkmənistan xalqına sülh, tərəqqi və prezident Qurbanqulu Məlikquliyeviçin rəhbərliyi ilə daha böyük inkişaf diləyir, ona yeni uğurlar, rifah, cansağlığı arzulayıram. Diqqətinizə görə sağ olun.

# Azərbaycan-Türkmənistan əməkdaşlığı regionda təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır

## Razılaşdırılmış məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcək

Noyabrın 22-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları ziyafətdə çıxış etdilər.

Türkmənistan Prezidenti **Qurbanqulu BERDİMƏHƏMMƏDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar, qonaqlar, hörmətli səfirlər.

Mən möhtərəm İlham Heydər oğluna və onun nümayəndə heyətinin üzvlərinə bir daha səmimi minnətdarlığımı və təşəkkürümü bildirmək istərdim. Onlar bizim dəvətimizi qəbul edərək öz qonşularının, qardaşlarının ölkəsinə rəsmi səfərə gəliblər və biz bu gün onları qonaqpərvər Türkmənistanda görməyə şadıq.

Demək istəyirəm ki, bu gün biz həqiqi qardaşlar kimi qarşılıqlı hörmət şəraitində çox yaxşı danışıqlar apardıq, ikitərəfli əməkdaşlığımızın, regional və beynəlxalq xarakterli məsələlərin çox böyük aspektini müzakirə etdik. Biz bütün aspektlərə aid 21 sənəd imzaladıq. Buraya həm humanitar, həm də istehsalat istiqamətləri daxildir. Ən başlıcası, biz, əlbəttə, nəqliyyat məsələlərinə çox böyük diqqət yetirdik.

Ümumiyyətlə, biz İlham Heydər oğlunun təşəbbüsü ilə Xəzərə aid məsələləri nəzərdən keçirdik. Bildiyiniz kimi, biz Xəzər dənizinin hüquqi statusu barədə konvensiyanı artıq qəbul etmişik. Odur ki, biz nəqliyyat-tranzit dəhlizinin düzgün logistikasını tərtib etməliyik. Bundan sonra biz həmin mövzunu lobbiləşdirməyə başladıq və yeri gəlmişkən, yəqin Siz də bilirsiniz ki, bu təşəbbüsə dair Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri qəbul edilib. Hətta nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, düzgün logistika barədə 3 qətnamə qəbul edilib. Noyabrın 28-də məhz nəqliyyat-tranzit dəhlizlərinin inkişafı mövzusunda konfrans keçiriləcək və elə indi bütün hörmətli səfirlərimizi həmin konfransa dəvət edirəm.





Məntiqlə yanaşsaq, coğrafi baxımdan həm Türkmənistan, həm də Azərbaycan bu məsələdə əsas ölkələrdir. Yəqin ki, Böyük İpək yolunu xatırlamağa və onun haqqında danışmağa ehtiyac yoxdur, çünki bu il Türkmənistanda "Böyük İpək yolu İli" elan edilib. Ümumiyyətlə, bugünkü görüşdə biz bunu qeyd etməkdən başladıq ki, Türkmənistan və Azərbaycan xalqları tarixən həmişə zəngin millətlər olub. Onların həmişə güclü ehtiyat potensialı olub və bu potensialdan həm öz xalqlarının, həm də qonşularının, regionun rifahı naminə istifadə ediblər. Sevindirici haldır ki, bu gün biz bunu müasir mərhələdə davam etdiririk.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən qarşılıqlı hörmət, qarşılıqlı etimad, mehriban qonşuluq ruhunda keçdi, bizim dostluq tellərimizi bir daha nümayiş etdirdi. Səhv etmirəmsə, Azərbaycanın böyük şairi Füzuli deyib ki, düz yol ilə gedən insana dostu həmişə kömək edər. Bu kəlam bir daha sübut edir ki, bu gün biz həqiqətən öz milli ənənələrimiz və xüsusiyyətlərimizlə mənəvi cəhətdən dəyərliyik.

Mən öz qardaşlarıma ən səmimi sözlərimi dedim. Qoy, dostluğumuz əbədi olsun. Sağ olun.

* * *

Azərbaycan Respublikasının Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab prezident.

Əziz dostlar, xanımlar və cənablar.

Mənim qardaş Türkmənistana rəsmi səfərim sona çatır. Qardaş Türkmənistan torpağına gəldiyim ilk dəqiqələrdən türkmən xalqının səmimiyyətini və qonaqpərvərliyini, əlbəttə ki, ilk növbədə, Türkmənistan Prezidentinin qayğısını hiss etdim.

Dünən mən türkmənlər üçün müqəddəs yerlərdə oldum. Bu xalqın nə qədər istedadlı, onun tarixinin və mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha gördüm. Əsrlər boyu türkmən xalqı öz torpağında yaşayıb, qurub-yaradıb, öz gələcəyini qurub. Biz azərbaycanlılar həmişə sizin yanınızda olmuşuq. Bizim dostluğumuzun, qardaşlığımızın çoxəsrlik tarixi var. Bu, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı dəstək, əməkdaşlıq tarixidir.

Türkmənistan son illərdə çox böyük yol keçib. Dünən müxtəlif obyektlərdə - idman kompleksində, xalça muzeyində olarkən mən Aşqabadı tanımadım. Çünki mənə elə gəlirdi ki, tamamilə başqa şəhərə gəlmişəm. Mənim burada olmadığım qısa müddət ərzində sanki şəhər içində şəhər yaradılıb. Bu, Türkmənistan dövlətinin qüdrətinin, onun iqtisadi potensialının göstəricisidir. Amma bu, ilk növbədə, ölkə rəhbərliyinin öz xalqının qayğısına qalmasını, inkişaf üçün göstərdiyi səyləri nümayiş etdirir. Bu gün Aşqabadda olarkən Türkmənistanın son illərdə necə inkişaf etdiyini görürsən. Bu, bizi sevindirir. Biz dost və qardaş kimi sizin uğurlarınıza sevinirik. Ölkələrimizin daha da yaxınlaşması üçün öz tərəfimizdən səy göstərmişik və göstərəcəyik.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, biz xalqlarımızın ənənəvi qardaşlıq və dostluq tellərinin daha da möhkəmlənməsi üçün çox iş görürük. Bunu bizə tarix, xalqlarımızın tarixi, ümumi etnik kökləri diktə edir. Bugünkü reallıq da bunu diktə edir. Bu gün bizim maraqlarımız üst-üstə düşür. Bu gün biz birgə səylərlə regionumuzda təhlükəsizliyə töhfə veririk. Biz Xəzər dənizi məsələsində fəal qarşılıqlı fəaliyyət göstəririk. Bilirsiniz ki, bu il Xəzər dənizinin hüquqi statusu ilə bağlı konvensiya imzalanıb. Bizim ölkələrimiz bu konvensiyanın imzalanmasına böyük töhfə verib. Biz Xəzər dənizinin ekoloji təhlükəsizliyi ilə məşğul oluruq. Biz hazırda mühüm və gələcəkdə də mühüm olacaq qitələrarası əhəmiyyətli məsələlər, o cümlədən "Şərq-Qərb nəqliyyat dəhlizi"nin möhkəmləndirilməsi ilə məşğuluq. Bu dəhliz uzun əsrlər mövcud olub. Bu dəhlizlə bizim əcdadlarımıza ünsiyyət qurmağa imkan vermiş karvanlar keçib. Böyük Tarixi İpək yolu bizim ölkələrimizin ərazisindən keçib və təbii ki, bu gün biz fəal surətdə bu dəhlizin müasir infrastrukturunun yaradılması üçün əlavə səylər göstəririk. Mən artıq qeyd etmişəm ki, biz sanki razılaşmışdıq, amma əslində razılaşmamışdıq. Faktiki olaraq, eyni zamanda, Türkmənistan və Azərbaycan ərazisində möhkəm nəqliyyat potensialı yaratdıq. Bu gün isə imzalanan sənədlərlə biz bu nəqliyyat potensialını birləşdirdik, əlaqələndirdik. İmzalanan 20-dən çox sənədin əksəriyyəti birbaşa və ya dolayısı ilə nəqliyyat təhlükəsizliyi üzrə əməkdaşlıq məsələsinə aiddir.

Biz regionda qarşılıqlı əməkdaşlıqdan, bu dəhlizin fəaliyyətindən ölkələrimizin, xalqlarımızın, qonşularımızın böyük fayda götürəcəyi tamamilə yeni vəziyyət yaradırıq. Bu, həyat arteriyası kimi ölkələrimizi yeni enerji ilə qidalandıracaq, yeni iş yerləri yaradacaq, yeni istehsalat sahələrinin qurulmasına doğru aparacaq, təhlükəsizliyi, əməkdaşlığı möhkəmləndirəcək.

Bu gün mən səfərimin yekunlarını təhlil edərək görürəm ki, səfər dövlətlərarası çərçivədən çıxıb, onun ən azı mühüm regional əhəmiyyəti var. Nəqliyyat və logistika imkanlarımızın genişləndirilməsi nəzərə alınmaqla bu, qlobal Avrasiya əhəmiyyəti kəsb edəcək. Avropa ilə Asiyanın nəqliyyat dəhlizlərinin birləşdirilməsi artıq reallıqdır. Bu reallığı biz yaradırıq. Əgər həm Türkmənistanda, həm də Azərbaycanda quruculuq, inkişaf yolları üzrə addımlar atılmasaydı, onda bu barədə söhbət aparmaq da, ümumiyyətlə, mümkün olmazdı. Əgər ölkələrimizin iqtisadi potensialına vaxtında yönəldilən sərmayələr olmasaydı, onda bu gün coğrafi vəziyyətimizin böyük əhəmiyyəti olmazdı. Biz öz coğrafiyamızı ölkələrimiz və qonşularımız üçün böyük potensiala çevirmişik. Buna görə düşünürəm ki, bizim razılaşdığımız məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcək.

Ən başlıcası, biz bu gün münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Hörmətli Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdı. Bu gün biz öz işimizlə münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Dostlar, qardaşlar arasında belə də olmalıdır. Bu gün biz münasibətlərimizi ən yüksək zirvəyə qaldırırıq. Hörmətli dostuma, Türkmənistan Prezidentinə ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsindəki səylərinə görə təşəkkür etmək istəyirəm. Hörmətli Qurbanqulu Məlikquliyeviçə uğurlar, cansağlığı, rifah, qardaş türkmən xalqına xoşbəxtlik və tərəqqi arzulayıram. Sağ olun.

## Səfər başa çatdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.**

*AZƏRTAC*

# Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə təntənəli şəkildə qeyd olunur.

AZƏRTAC xəbər verir ki, yubiley münasibətilə nazirliyin bütün struktur qurumlarında silsilə tədbirlər, o cümlədən "açıq qapı" günü, "dəyirmi masa", ictimai təqdimat və digər yığıncaqlar, universitetlərdə və orta məktəblərdə açıq dərslər, mühazirələr, kütləvi idman yarışları (futbol, voleybol, şahmat) və intellektual oyunlar, veloyürüş, könüllü qanvermə və ağacəkmə aksiyaları təşkil olunub, ədliyyə veteranlarına, uşaq evlərinə baş çəkilib, yeni qulluğa qəbul olunan gənclərlə görüşlər keçirilib. Bu ərəfədə Zaqatalada ədliyyə orqanları və rayon məhkəməsi üçün yeni müasir binanın açılışı həyata keçirilib, bəzi struktur qurumlara xidməti istifadə üçün Azərbaycanın milli istehsalı olan yeni avtomobillər təqdim edilib, ədliyyə işçilərinə bayram sovqatları, mükafatlar verilib.

Eyni zamanda, nazirlik tərəfindən Azərbaycan ədliyyəsinin 100 illik tarixinə dair xüsusi kitab, ədliyyənin rəmzləri, nazirliyin müasir fəaliyyəti, o cümlədən məhkəmə-hüquq islahatları, beynəlxalq hüquq əlaqələri barədə müxtəlif dillərdə toplular, broşürlər, bukletlər və digər maarifləndirici vəsaitlər, o cümlədən videoçarxlar, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər hazırlanıb. Həmçinin nazirliyin rəhbərliyi, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çoxsaylı çıxışlar edilib.

Bu bayramı ədliyyə işçilərinə bəxş etmiş ümummilli lider Heydər Əliyevə əbədi ehtiramın əlaməti olaraq nazirliyin rəhbərliyi və kollektivi, hakimlər yubiley ərəfəsində Fəxri xiyabanda ulu öndərin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər güllər düzülüb.

Sonra ədliyyə işçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarında keçmiş vətən övladlarının məzarlarını da ziyarət ediblər.

Noyabrın 22-də Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə Bakıda, "Abşeron Marriott" mehmanxanasında "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Yubiley tədbirində iştirak etmək üçün Türkiyənin ədliyyə naziri Abdulhamit Gül nazirliyin rəhbər şəxslərindən və qardaş ölkənin deputatlarından ibarət geniş tərkibli nümayəndə heyəti ilə, Belarusun ədliyyə naziri Oleq Slijevski, Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladze, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Georq Stava ölkəmizə səfərə gəliblər.




Konfransda, həmçinin ölkəmizin aidiyyəti qurumlarından 110-dan çox nümayəndə, o cümlədən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, deputatlar, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, Vəkillər Kollegiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin məsul şəxsləri, alimlər, gənclər, vətəndaş cəmiyyətinin nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan nazir Fikrət Məmmədov tədbirdə iştirak edən qonaqları salamlayıb, Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edib. Nazir konfransın hüquqi dövlətdə ədliyyə sisteminin, Azərbaycan ədliyyəsinin formalaşmasına, inkişafına və qarşıda duran yeni çağırışlara həsr olunduğunu bildirib.

Nazir Prezident İlham Əliyevin yubiley münasibətilə ədliyyə işçilərinin və hakimlərin böyük bir qrupunu orden və medallar, fəxri adlar və ali xüsusi rütbələrlə təltif etməsinin, ədliyyə və məhkəmə işçilərinə təbrik məktubunun dərin minnətdarlıq hissi ilə qarşılandığını və dövlət başçısının Azərbaycan ədliyyəsinə qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Bildirib ki, bu yüksək etimadı doğrultmaq üçün ədliyyə işçiləri bundan sonra daha əzmlə və məsuliyyətlə çalışmağı özlərinin vəzifə borcu sayırlar.

Prezidentin köməkçisi Fuad Ələsgərov dövlət başçısı İlham Əliyevin Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə ədliyyə və məhkəmə işçilərinə ünvanladığı təbrik məktubunu oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Ali Məhkəmənin sədri Ramiz Rzayev konfransda çıxış edərək Azərbaycan ədliyyəsinin və məhkəmə sisteminin qurulması tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə və məhkəmə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Sonra məruzə və çıxışlar dinlənilib. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov "Azərbaycan ədliyyəsi 100: təkamül və yeni çağırışlar" mövzusunda geniş məruzə ilə çıxış edib.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının zəngin ədliyyə tarixindən bəhs edən nazir ədliyyə işinə hələ qədim dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə xüsusi diqqət yetirildiyini, ədliyyənin şanlı tarixinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başladığını diqqətə çatdırıb.

Bildirib ki, 1918-ci il mayın 28-də cümhuriyyətin qurulması ilə eyni gündə təsis olunan Ədliyyə Nazirliyi respublikanın mövcud olduğu 23 ay ərzində ölkənin hüquq sisteminin, ədliyyə və məhkəmə fəaliyyətinin bərpası və təkmilləşdirilməsi, dövlət dili olan Azərbaycan dilini bilən şəxslərin işə cəlb olunması, mühüm qanun layihələrinin hazırlanması, penitensiar xidmətin nazirliyin tabeliyinə verilməklə həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması istiqamətində tarixi xidmətlər göstərib.

Sovet hakimiyyətinin ilk illərində ədliyyə orqanlarının iki dəfə ləğv edilərək yenidən yaradılmasını, fasilələrlə fəaliyyət göstərməsini ədliyyə tarixinin keşməkeşli dövrü adlandıran nazir Fikrət Məmmədov Azərbaycan ədliyyəsinin sabit və davamlı inkişafının yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövrə - 1970-ci ilə təsadüf etdiyini vurğulayıb, müstəqillik illərində ulu öndərin demokratik hüquqi dövlət quruculuğu, müasir hüquq sistemimizin inkişafı istiqamətində müstəsna xidmətlərini qeyd edib. Bildirib ki, yeni üçpilləli müstəqil məhkəmə hakimiyyətinin bərqərar edilməsi, ədliyyə orqanlarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi ümummilli liderin adı ilə bağlıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələnin başlandığını deyən ədliyyə naziri ötən dövrdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, əldə olunan nailiyyətlər və tətbiq edilən yeniliklər barədə ətraflı məlumat verib, nazirliyin ayrı-ayrı istiqamətləri üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri əyani təqdimatla iştirakçıların diqqətinə çatdırıb.

Konfransda Ədliyyə Nazirliyi tərəfindən yubiley münasibətilə hazırlanmış ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" xüsusi kitabın Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov tərəfindən ictimai təqdimatı olub.

*Ardı 5-ci səh.*

# Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair müzakirələr aparılıb



Noyabrın 22-də Nazirlər Kabinetində qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə dair iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlət başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların qış aylarında daha çox nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

Paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı 204 binanın olduğunu qeyd edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların qış fəslində kommunal problemlərlə üzləşməməsi üçün aidiyyəti qurumların da komitə ilə birgə işləməsinin vacibliyini bildirib. Sədr artıq bir neçə binaya baxış keçirdiklərini və bəzi binalardakı kommunikasiya xətlərinin yenilənməsinə ehtiyac olduğunu bildirib.

Qışa hazırlıqla bağlı tədbirlərin görülməsinin vacibliyini vurğulayan Baş nazirin müavini müvafiq strukturlara həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

# Mərkəzi Seçki Komissiyasının iclası olub

Məzahir Pənahovun sədrliyi ilə noyabrın 22-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2018-ci il 30 mart və 15 aprel tarixində keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 5 saylı Şahbuz-Babək, 7 saylı Ordubad-Culfa, 19 saylı Nərimanov birinci, 24 saylı Nizami birinci, 40 saylı Kəpəz ikinci, 61 saylı Neftçala, 82 saylı Ağcabədi və 122 saylı Xankəndi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Beynəlxalq təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələri iclasda iştirak edib.

## Qərar № 17/91

### Mərkəzi Seçki Komissiyasının 30 mart və 15 aprel 2018-ci il tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 30 mart və 15 aprel 2018-ci il tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.11.2018-ci il*

## Qərar № 17/93

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Əli Süleyman oğlu Qurbanov 5 saylı Şahbuz Babək, Şaban Həmzə oğlu Qasımov 7 saylı Ordubad Culfa, Etibar Məmməd oğlu Abdullayev 19 saylı Nərimanov birinci, Sevil Eldar qızı Məmmədova 24 saylı Nizami birinci, Ulduzə Teymur qızı İsayeva 61 saylı Neftçala, Rasim İsa oğlu Hacıyev 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Hünər Maşallah oğlu Əliyev 2 saylı Şərur, İlvin Əvəz oğlu Rzayev 5 saylı Şahbuz - Babək, Həmzə Şaban oğlu Qasımlı 7 saylı Ordubad Culfa, Azad Cavad oğlu Nəbiyev 19 saylı Nərimanov birinci, Sevinc Vaqif qızı Bağırova 24 saylı Nizami birinci, Fəridə Hüseynağa qızı Abbasəliyeva 40 saylı Kəpəz ikinci (Gəncə), Mehparə Teymur qızı İsayeva 61 saylı Neftçala, Mübariz Əkbər oğlu İbrahimov 82 saylı Ağcabədi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.11.2018-ci il*

## Qərar № 17/92

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

"Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1180-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2018-ci il tarixli 211 nömrəli Fərmanının 2-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 5 iyun 2013-cü il tarixli 5/22 saylı Qərarı ilə təsdiq edilmiş "Məntəqə seçki komissiyasının formalaşdırılması qaydaları haqqında Təlimat"ın 1.4-cü bəndində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli 6/49 saylı Qərarı ilə təsdiq edilmiş "Hərbi qulluqçuların seçkilərdə (referendumda) iştirakına dair Təlimat"ın 2.1.3-cü yarımbəndində "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

3. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*22.11.2018-ci il*

# Yaponiyanın milli bayramı - İmperatorun ad günü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib



Noyabrın 22-də Yaponiyanın Azərbaycandakı səfirliyi bu ölkənin milli bayramı - İmperatorun ad günü münasibətilə rəsmi qəbul təşkil edib. AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Səfir Teruyuki Katori bildirib ki, Yaponiya İmperatoru yapon xalqının birlik rəmzidir və onun doğum günü milli bayram kimi qeyd olunur. Bu il İmperator Akihitonun 85 yaşı tamam olacaq. Əlahəzrət İmperator hər zaman xalqının rifahı naminə çalışıb. 2019-cu ilin aprelində o, taxt-tacdan imtina edəcək.

Azərbaycan ilə Yaponiya arasında əlaqələrdən danışan səfir ötən dövr ərzində ölkələrimizin münasibətlərinin davamlı şəkildə inkişaf etdiyini söyləyib. O, Yaponiyanın xarici işlər naziri Taro Kanonun Azərbaycana səfərini, səfər çərçivəsində keçirilmiş yüksək səviyyəli görüşlərdə ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə dair aparılan səmərəli müzakirələri xatırladıb. Vurğulayıb ki, Yaponiya hökuməti Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır. Siyasi, iqtisadi, təhsil, mədəniyyət sahələrində, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq daha da dərinləşib.

Azərbaycan hökuməti adından Yaponiya xalqını milli bayram münasibətilə təbrik edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib ki, Azərbaycan hər sahədə Yaponiya ilə əməkdaşlıq imkanlarını öyrənməyə hazırdır. Azərbaycan-Yaponiya əlaqələrində məhsuldarlıq müşahidə edilir, ikitərəfli ticarət dövriyyəsi dinamik şəkildə artır. Ölkələrimiz arasında siyasi etimad mövcuddur. Yaponiya beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına öz töhfəsini verir.

Azərbaycanda həyata keçirdiyi bir çox layihələrə görə Yaponiya hökumətinə minnətdarlıq edən nazir ölkələrimizin müxtəlif sahələrdə fəal əməkdaşlıq etdiyini vurğulayıb. O, əmin olduğunu bildirib ki, ikitərəfli münasibətlər gələcəkdə daha da möhkəmlənəcək. Azərbaycan Yaponiya ilə iqtisadi, kənd təsərrüfatı və ətraf mühitin qorunması sahəsində əməkdaşlıqda maraqlıdır. Bundan başqa, hər iki ölkədə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi xalqlarımızın yaxınlaşmasına xidmət edir.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, diplomatlar, KİV təmsilçiləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransında olimpiadaların qaliblərinə diplomlar verilib






Noyabrın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının açılış mərasimi keçirilib.

İki gün davam edəcək konfrans Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunub. Konfransda ali təhsil müəssisələrinin rəhbərləri, respublikanın tanınmış alimləri, doktorantlar və gənc tədqiqatçılar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən ADPU-nun rektoru, professor Cəfər Cəfərov konfransın gənc alimlərin elmi fəaliyyətinə təkan verəcəyini bildirib. Ölkəmizdə elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərildiyini deyən rektor son illər universitetdə elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldiyini bildirib. C.Cəfərov vurğulayıb ki, ADPU-nun tədqiqat universiteti statusu alması qarşıda duran əsas vəzifələrdən biridir. Universitetdə gənc tədqiqatçıların yetişdirilməsinə xüsusi diqqət yetirilir və bu istiqamətdə məqsədyönlü fəaliyyət həyata keçirilir.

Təhsil naziri Ceyhun Bayramov çıxışında elm, təhsil və innovasiyaların inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu deyib. Nazir dövlətimizin başçısının sərəncamı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsinin doktorantların və gənc tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılmasına, doktorantura təhsilinin beynəlxalq standartlar əsasında qurulmasına mühüm töhfə verəcəyini vurğulayıb.

Gənclərin elmi fəaliyyətə daha fəal cəlb olunması istiqamətində davamlı addımların atılmasının zəruri olduğunu vurğulayan C.Bayramov qeyd edib ki, hazırda ölkə üzrə elmlər doktoru proqramlarında təhsil alanların 8 faizini (45 nəfər) 30 yaşa qədər olan gənclər, 29 faizini isə (163 nəfər) 40 yaşa qədər olanlar təşkil edir. Nazir dövlət dəstəyi sayəsində elmlə məşğul olan gənclərin sayının artırılmasının mümkün olacağına əminliyini bildirib. Qeyd olunub ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində indiyədək 1534 nəfər magistraturada, 547 nəfər rezidenturada, 169 nəfər doktoranturada təhsil almaq hüququ qazanıb.

C.Bayramov bildirib ki, Təhsil Nazirliyinin "Clarivate Analytics" ilə əməkdaşlığı nəticəsində Azərbaycan 2017-ci ildə "Web of Science" elmi bazasında ilk dəfə nəşr aktivliyinin son 3 il üzrə artım dinamikasına görə regionda birinci yerə çıxıb. "Web of Science" elmi bazasında 2017-ci ildə Azərbaycandan 1160 elmi tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə ölkə üzrə nəşr sayında rekord göstərici hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev çıxışında bildirib ki, gənclərin inkişafı, onların elmi fəaliyyətə cəlb edilməsi ölkə rəhbərliyinin diqqət mərkəzindədir. E.Babayev ölkəmizdə insan resurslarının inkişafı, kadr hazırlığının yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. O, gənc alimlərə kömək məqsədilə fond tərəfindən reallaşdırılan qrant layihələrinin uğurlu nəticələrindən danışıb.

Sonra gənc doktorantlar müxtəlif mövzularda çıxış ediblər.

Konfrans öz işini 15 bölmədə davam etdirib. Konfransa ali təhsil müəssisələrindən və Azərbaycan Milli Elmlər Akademiyasından 500 tezis təqdim olunub.

Konfrans çərçivəsində ADPU-nun məzunları olmuş akademik Yusif Məmmədəliyevin, akademik Zahid Xəlilovun, akademik Həsən Abdullayevin adlarını daşıyan auditoriyaların da açılış mərasimi keçirilib. Mərasimdə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş riyaziyyat, fizika, kimya, biologiya və informatika üzrə olimpiadaların qaliblərinə diplomlar təqdim edilib.

# Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

*Əvvəli 4-cü səh.*

Əyani təqdimat zamanı məlumat verilib ki, Azərbaycan ədliyyəsinin 100 illik tarixinə qiymətli töhfə olan bu kitabda xalqımızın ədliyyə tarixi ən qədim zamanlardan başlayaraq yaşadığımız günlərədək ətraflı tədqiq edilib. Azərbaycan ədliyyəsinin Xalq Cümhuriyyəti dövrünün ayrıca təqdim olunması, sovet hakimiyyəti dövründə və müstəqillik illərində ulu öndər Heydər Əliyevin Azərbaycan ədliyyəsinin inkişafında misilsiz xidmətlərinin geniş işıqlandırılmasının təqdirəlayiq olduğu vurğulanıb. Həmçinin bildirilib ki, müasir mərhələdə Prezident İlham Əliyevin yürütdüyü ədliyyə və məhkəmə-hüquq islahatlarına dair verilən zəngin material həm azərbaycanlı oxucular üçün, həm də Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması baxımından çox qiymətlidir.

Akademik Y.Mahmudov illüstrasiya materiallarının zəngin olduğu "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" kitabının işıq üzü görməsini ədliyyə tariximizin bütöv halda sistemli şəkildə araşdırılması baxımından mühüm hadisə kimi dəyərləndirib, ədliyyə və məhkəmə-hüquq tariximizə sanballı töhfə və oxucular üçün dəyərli vəsait olduğunu vurğulayıb.

Sonra Türkiyənin ədliyyə naziri Abdulhamit Gül "Türkiyənin məhkəmə sistemi müasir inkişaf mərhələsində" mövzusunda çıxış edərək Azərbaycanın ədliyyə sahəsində böyük uğurlar qazandığını bildirərək bu münasibətlə təbriklərini çatdırıb.

"Türkiyə və Azərbaycan iki dost və qardaş ölkə, bir millət, iki dövlətdir. Xüsusilə Qafqazda davamlı sülh, sabitlik və inkişafın təmin edilməsi üçün ölkələrimiz arasında həmrəylik vacibdir. Türkiyə və Azərbaycan gücünü ortaq tarixdən alan, bir-birinə bağlı olan ölkələrdir. Həm ikitərəfli, həm də regional məsələlərdə əməkdaşlığı və həmrəyliyimizi genişləndirməkdə qətiyyətliyik. Dövlətlərimizin başçıları arasında yaxın münasibətlər, qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərin göstəricisidir", - deyən ədliyyə naziri Abdulhamit Gül əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını söyləyib, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

"Belarus Respublikasının ədliyyə sisteminin inkişafı: vəzifələr, nailiyyətlər, tendensiyalar" mövzusunda çıxış edən Belarusun ədliyyə naziri Oleq Slijevski ötən il Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Sazişin implementasiyası çərçivəsində təcrübə mübadiləsinin uğurla davam etdirildiyini bildirib. O, Belarus ədliyyə sisteminin fəaliyyəti barədə məlumat verərək qeyd edib ki, iki ölkənin ədliyyə orqanları arasında fəaliyyətlər bənzərdir və qarşımızda ümumi hədəflər durur.

CEPEJ-in prezidenti Georq Stava "Azərbaycan və CEPEJ: inkişaf üçün əməkdaşlıq" mövzusunda çıxış edərək ölkəmizlə səmərəli əlaqələri vurğulayıb, son illər Azərbaycanda məhkəmə-hüquq sistemində yüksək uğurlara nail olunduğunu, məhkəmə sistemində İKT-lərin və elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi sahəsində Azərbaycanın ön sıralarda olduğunu vurğulayıb. O, həmçinin jurnalistlərə müsahibəsində Azərbaycanda məhkəmə sistemində həyata keçirilən layihələrin digər dövlətlərə örnək kimi təqdim olunduğunu və artıq Avstriyanın Azərbaycanın bu sahədə təcrübəsindən istifadə etdiyini vurğulayıb.

Konfransda Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mixeil Sarjveladzenin "Gürcüstanın ədliyyə sektorunda islahatlar - güclü qanunun aliliyi və demokratiyaya doğru irəliləyiş", Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin "Hüquq sisteminin inkişafında müasir qanunvericilik bazasının rolu", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Ədalət mühakiməsinin həyata keçirilməsi işində vəkilliyin rolu", Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyevin "Ədliyyə və məhkəmə sistemi üçün hüquqşünas kadrların hazırlanması" və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyninin "Ədliyyə fəaliyyətində ictimai iştirakçılıq" mövzularında çıxışları dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirin yekununda ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

Həmin gün Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlayan qəbulda yubiley münasibətilə hazırlanmış və Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan bəhs edən xüsusi film nümayiş olunub, mədəni proqram təşkil edilib.

# XİN: "Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna Azərbaycanın dəvət olunmaması ilə bağlı yayılan məlumat araşdırılır"

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti bu ilin dekabr ayında Tbilisidə təşkil ediləcək Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun onuncu illik iclasına rəsmi Bakının dəvət olunmaması ilə bağlı KİV-də yayılan məlumata münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, mətbuat xidmətinin bununla bağlı açıqlamasında deyilir: "Qeyd edilən məsələ Azərbaycan Respublikasının Avropa İttifaqı yanındakı nümayəndəliyi tərəfindən araşdırılır. Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumuna Azərbaycanın rəsmi nümayəndələrinin dəvət olunmaması faktı öz təsdiqini taparsa, bu, əlbəttə ki, Şərq Tərəfdaşlığı üçün müsbət hal olmayacaq.

Məsələ ilə bağlı kütləvi informasiya vasitələrinin suallarını, eyni zamanda, Avropa İttifaqının Bakıdakı nümayəndəliyinə və tədbirə evsahibliyi edəcək Gürcüstanın ölkəmizdəki səfirliyinə ünvanlaması məqsədəuyğun hesab edilir".

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altındakı Nəmirli, Cəvahirli, Seyidli, Acarlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Dövlət başçısına minnətdarlıq

# Qayğı razılıqla qarşılanır

## Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş zabit və əsgər ailələrinə birdəfəlik ödəmələrin verilməsi davam edir

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli fərmanının icrası ilə əlaqədar 1997-ci il avqustun 2-dək respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi Bakıda, eləcə də ölkəmizin bölgələrində uğurla davam etdirilir. Ölkə rəhbərinin bu humanist addımını ictimaiyyət nümayəndələri, ilk növbədə şəhid ailələri rəğbətlə qarşılayırlar. Bunu redaksiyaya daxil olan telefon zənglərindən, teleqram və məktublardan da aydın görmək olur.


Etibar Usubov


Nurulla Nuriyev

*Şəmkir rayonu, Təzəkənd kəndindən tarix müəllimi Nizami Əliyev yazır:*

"Hörmətli redaksiya!

Bu fərman ictimaiyyətdə dövlətə və dövlətçiliyə olan inamın üstünə daha bir inam gətirdi. Yaşadığım kənddə, eləcə də ətraf ərazilərdə tanıdığım neçə-neçə şəhid ailəsi var ki, birdəfəlik yardımla bağlı onların üzündəki təbəssüm hamıya xoş təsir bağışlayır. Sosial problemlərinin həllinə sərf edəcəkləri bu məbləğ onlara könül rahatlığı, sevinc bəxş edib. Azərbaycan Prezidentinin daim qayğısı ilə əhatə olunan şəhid ailələri bir daha əmin oldular ki, onlar hər zaman ölkə rəhbərinin diqqətindədirlər. Prezident seçkiləri ərəfəsində cənab İlham Əliyev uzun illər gündəlikdə duran bu məsələnin həll olunacağını vəd etmişdi, məmnunuq ki, vədinin təsdiqini tapan fərman imzalanmış və icra olunmaqdadır. Bu, həm də Azərbaycan Prezidentinin öz vədinə sadiq qaldığının, hər bir vətəndaşın sosial müdafiəsinə xüsusi həssaslıqla yanaşdığının bariz nümunəsidir.

Kəndimizdə bir neçə şəhid ailəsi var. Onlardan biri də ölkə Prezidentinin 19 aprel 2018-ci il tarixli fərmanı ilə 11 min manat birdəfəlik maddi yardım ödənilməsi nəzərdə tutulan, vaxtilə mənim dərs dediyim şagirdlərdən olmuş Etibar Nəriman oğlu Usubovdur.

Etibar sadə bir fəhlə ailəsində boya-başa çatmışdı. Vətənpərvər bir gənc idi. Orta məktəbi bitirən kimi 18 yaşının tamamında könüllü rayon hərbi komissarlığına müraciət etdi. Rəsmi qaydada çağırış vərəqəsi alanda dostları, yaxınları onu təntənəli surətdə əsgəri xidmətə yola saldılar. Etibar Milli Ordunun Beyləqan istiqamətindəki "N" saylı hərbi hissəsində xidmət edirdi. Əsgəri təlimlərdə nümunəvilik göstərəndə, silahla davranmağın sirlərini yaxşı-yaxşı öyrənəndə əsgər yoldaşlarına deyərmiş: "Əsgəri qaydalara, komandirlərin əmrinə vaxtında əməl etmək bizim borcumuzdur... Bunların hamısı vətəni yaxşı qorumaq və erməni işğalçılarından intiqam almaq üçün çox vacibdir",

Bütün bunlar barədə Etibar 6 aydan sonra nümunəvi əsgər kimi bir neçə günlüyə kəndə - evlərinə ezamiyyətə gələndə həmyaşıdlarına və çağırışçı yaşında olan gənclərə fərəhlə danışırdı...

Etibar məzuniyyətini başa vurmamış, vaxtından əvvəl Beyləqana, hərbi hissəyə qayıtdı. O, ön cəbhədə səngərlərdə vətənin keşiyini çəkməkdən qürur duyurdu, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarından tezliklə çıxarılması üçün ən çətin tapşırıqların arxasınca getməkdən qorxmurdu. Dəfələrlə düşmənin arxa hissəsinə getmiş, uğurlu əməliyyatlar yerinə yetirmiş və "dil" gətirmişdi. Təəssüf ki, 1994-cü ildə erməni hərbçilərinin Beyləqan istiqamətindən növbəti dəfə torpaqlarımıza hücumu zamanı gedən şiddətli döyüşlərdə Etibar Usubov həlak olmuşdur".

Bu gün Azərbaycan Prezidentinin fərmanına əsasən cəsur döyüşçü Etibar Usubovun da ailəsi 11 min manat məbləğində birdəfəlik yardım almışdır. Etibarın atası Nəriman, anası Elmira xanım həyatda olmasa da, Prezidentin fərmanına əsasən bu maddi yardım ailənin vərəsələri - qardaşı Bəxtiyarın, bacıları Esmira və Elmiranın bank hesablarına köçürülmüşdür. Buna görə Etibarın müəllimi Nizami Əliyev, şəhidin vərəsələri - qardaşı Bəxtiyar və bacıları ölkə başçısına minnətdarlıqlarını və təşəkkürlərini bildirirlər.

Tovuz rayonundan şəhid olmuş hərbi qulluqçu Rzayev Namiq Qənbər oğlunun anası Navad Rzayeva da şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılığını ifadə edərək bildirir: "Tovuz rayonu Əlibəyli kəndinin sakini, eləcə də şəhid anası kimi ölkə başçısı İlham Əliyevə maliyyə yardımı ilə bağlı təşəkkürümü bildirirəm. Biz hər zaman dövlətin şəhid ailələrinə qayğısını hiss edirik. Amma birdəfəlik maliyyə yardımı bizə bir sıra problemlərimizin həlli üçün çox gərəkli oldu. Yaşımla əlaqədar səhhətimdə bir sıra problemlərim var. Aldığım maliyyə yardımı ilə iki gözümü də əməliyyat etdirəcəyəm və s".

Bakının Nərimanov rayonundan olan, Füzuli rayonunda gedən döyüşlərdə şəhid olmuş zabit Nurulla Nuriyevin ömür-gün yoldaşı Sevil xanım redaksiyaya zəng edərək dedi:

"Həyat yoldaşım Nurulla 1993-cü ildə könüllü olaraq Daxili Qoşunların tərkibində döyüşlərə qatılmışdı. O, cəbhəyə gedəndə iki qızı - Samirə, Ayelita, oğlu İbrahim azyaşlı idi. Mən də, təzə-təzə ağılları kəsən qızlarım da Nurullanın vətənin ağır günündə erməni işğalçılarına qarşı döyüşlərdə iştirakından qürurlanırdıq. Təəssüf ki, bu qürurlu günlərimizin ömrü qısa oldu. Tanrının qisməti belə idi, Nurulla 1994-cü il martın 9-da Füzuli rayonuna yaxın ərazidə ermənilərlə üzbəüz döyüşlərdə həlak oldu. Onu hərbçi yoldaşları, Müdafiə Nazirliyinin, rayon hərbi komissarlığının, digər dövlət qurumlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Biləcəri qəbiristanlığında doğmalarının yanında, əsgərlərin yaylım atəşi altında dəfn etdilər. Yasın keçirilməsi, qəbirüstünün götürülməsi dövlət hesabına oldu. Ulu öndərin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin ölkənin şəhid ailələrinə göstərdiyi qayğının timsalında mən iki qız, bir oğlan uşağını vətənimə, xalqıma layiq övlad kimi böyütmüşəm. Prezidentin tapşırığına əsasən şəhid ailəsi kimi Binəqədi rayonunda çoxmənzilli binada üçotaqlı mənzillə təmin olundum. Bundan sonra yenə də dövlət başçısının göstərişi ilə şəhid ailəsi kimi Pirşağı qəsəbəsinin yaxınlığında, dənizə yaxın, səfalı bir ərazidə bizə 11 sot bağ yeri verdilər. Dövlətin qayğısı sayəsində qızım Samirə Bakı Maliyyə-İqtisad Kollecini bitirib. Bacısı isə ali təhsillidir, bank işi üzrə ixtisasa yiyələnib. Oğlum İbrahim də ali təhsillidir, məhz şəhid ailəsi övladı olduğunu nəzərə alaraq onu Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Bölməsinə işə götürdülər. Deməyim odur ki, bu gün də dövlətin bir əli biz şəhid ailələrinin üstündədir. Şəhid ailələrinə birdəfəlik 11 min manat yardım edilməsi bir daha onu göstərdi ki, dövlət başçımız daim hərbçilərimizin, şəhid ailələrinin qayğısına qalır.

Hörmətli redaksiya!

Zəng edib vaxtınızı almaqda məqsədim qəzetiniz vasitəsilə ölkəmizdə bütün kateqoriyalardan olan şəhid ailələrinə göstərdikləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümü bildirməkdir. Biz şəhid ailələrinin xeyir-duası onlara hər zaman yar olsun!"

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Cəbhə bölgəsinə xüsusi dəstək var

*Əvvəli 1-ci səh.*

Cari mövsümdə 3300 hektar sahədə pambıq əkmiş tərtərlilər noyabrın ortalarınadək 7.500 ton məhsul tədarük etmişlər. Amma bu, son hədd deyil, yığım davam edir. Kümçülər isə cari il 10.228 kiloqram barama tədarük etmişlər. Bu, keçən ildəkindən 2,2 dəfə çoxdur. Lakin sahəni inkişaf etdirmək üçün rayonda böyük potensial var. Təsərrüfatlarda yeni çəkilliklər salınmaqla baramaçılığın inkişafı üçün etibarlı zəmin, möhkəm yem bazası yaradılmışdır.

Bu il taxılçıların qazandığı nəticə də fərəhlidir. Rayon üzrə cari mövsümdə 44.175 ton taxıl istehsal olunaraq hər hektarda orta məhsuldarlıq 41,1 sentnerə çatdırılmışdır ki, bu da keçən ildəkindən 2,8 sentner çoxdur. Rayon təsərrüfatında şəkər çuğunduru, günəbaxan, qarğıdalı, kartof, meyvə-tərəvəz, heyvandarlıq məhsulları istehsalında da kifayət qədər artım var.

Ölkədə sahibkarlığın inkişafına ildən-ilə güclənən dövlət dəstəyi rayonda böyük razılıq doğurur. Rayon icra hakimiyyətində sahibkarlarla vaxtaşırı görüşlər keçirilir. Bu görüşlər zamanı sahibkarları narahat edən problemlər öyrənilir, onları aradan qaldırmaq üçün zəruri və operativ tədbirlər görülür. Bunun nəticəsidir ki, cari ilin doqquz ayı ərzində 261 nəfər rayon sakini sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün vergi orqanlarında qeydiyyatdan keçmişdir.

İki il əvvəl Tərtər şəhərinin içməli su və kanalizasiya sistemi tikilib istifadəyə verilmişdir. Bu layihənin davamı olaraq dövlət başçısının sərəncamına əsasən, 18.440 nəfərin yaşadığı 11 kənddə içməli su xətləri çəkilmişdir. Prezident İlham Əliyevin 9 aprel 2018-ci il tarixli sərəncamına uyğun olaraq daha bir neçə kənddə əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq üçün nəzərdə tutulan tədbirlər də başa çatmaq üzrədir.

Bunlardan əlavə, rayonun bütün yaşayış məntəqələri tam qazlaşdırılmışdır. Əhali fasiləsiz elektrik enerjisi ilə təmin olunur, səhiyyə, təhsil, mədəniyyət sahəsində xeyli müsbət yeniliklər var, rabitə və poçt xidmətləri yüksək səviyyədədir. Bir sözlə, cəbhə rayonu, digər bölgələr kimi, gündəlik həyat qayğılarını rahat və problemsiz yaşayır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Qeyri-neft sektorunun inkişaf dinamikası davam edir

## Bu sektorda həm məhsul istehsalı, həm də ixracı yüksək templə artır

*Əvvəli 1-ci səh.*

Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 6648,1 manata bərabər olmuşdur.

10 ay ərzində ölkədə 40 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,5 faiz çoxdur. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10 faiz artmışdır. Artım neft sektorunda da qeydə alınmışdır - 0,2 faiz. Məhsulların 73,4 faizi mədənçıxarma, 22 faizi emal, 3,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 0,1, əmtəəlik qaz hasilatında 3,5 faiz artım müşahidə olunmuşdur.

Emal sektorunda isə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 26,5, tütün məmulatları 2,5, elektrik avadanlıqlarının istehsalı 2,4, poliqrafiya məhsulları istehsalı 2,9, mebel istehsalı 2,1 dəfə, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 35,6, toxuculuq sənayesi məhsulları istehsalı 48,8, tikinti materialları istehsalı 28,9, metallurgiya sənayesi məhsulları istehsalı 13,3, içkilərin istehsalı 10,6, kimya sənayesi məhsulları istehsalı 3,8, kağız və karton istehsalı 6,8, ağacın emalı və ağacdan məmulatların istehsalı 21 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur - müvafiq olaraq 5,7 və 3,3 faiz.

Hesabata əsasən, yanvar-oktyabr aylarında əsas kapitala 11 milyard 482,7 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövründəkindən 11,3 faiz azdır. Bu, neft sektoruna yatırılan investisiyaların azalması ilə bağlıdır. Əvəzində isə qeyri-neft sektoruna qoyulmuş investisiyaların həcmi 16,7, o cümlədən qeyri-neft sənayesinə yatırılan kapitalın həcmi 18,2 faiz artmışdır. Yeri gəlmişkən qeyd edək ki, 10 ayda ölkə üzrə neft sektoruna 4 milyard 929,4 milyon manat vəsait yönəldilmişdir. Qeyri-neft sektoruna sərf edilən vəsaitin məbləği isə 6 milyard 553,3 milyon manat olmuşdur ki, bunun da 1 milyard 230,5 milyon manatı (ümumi sərmayənin 10,7 faizi) qeyri-neft sənayesi sektorunun payına düşmüşdür.

Bu dövrdə istifadə olunmuş ümumi vəsaitin 69,1 faizi məhsul istehsalı və 22,6 faizi xidmət obyektlərinin, 8,3 faizi ümumi sahəsi 1,6 milyon kvadratmetrdən çox olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 62,1 faizi daxili sərmayələr olan bu vəsaitlərin 69,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir.

Xarici sərmayəyə gəldikdə, hesabat dövründə onların həcmi 4 milyard 354,6 milyon manata çatmışdır. Bu vəsaitin 80,8 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Çexiya, Rusiya və İran kimi ölkələrə məxsusdur.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 10 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı müəssisə və obyektlər tikilib istifadəyə verilmişdir. Onların sırasında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Statistika İdarəsinin inzibati binası, "Bona Dea" beynəlxalq hospital, Bakı Beynəlxalq Ticarət Limanı Kompleksi, "Dinamo" hoteli, "Abşeron" Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıtdakı Kimya Sənaye Parkında polipropilen zavodu, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Xaçmazda "Azərxalça" ASC-nin filialı, Naxçıvan MR-də 922 şagirdlik 3 ümumtəhsil məktəb binası və ambulator-poliklinika, Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Naftalanda şəhər mərkəzi xəstəxanası, Goranboyda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, "Dəliməmmədli" elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolu, İsmayıllıda heyvandarlıq kompleksi, aqropark, elektrik yarımstansiyası, "Azərxalça" ASC-nin filialı, eləcə də Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Şamaxıda üzümçülük və şərabçılıq kompleksi, Dəmirçi Arxeologiya Muzeyi, Dəmirçi-Lahıc avtomobil yolu, Biləsuvar rayonunda Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolu, Masallıda Sənaye məhəlləsi və çəltik emalı müəssisəsi, Qaxda aqropark, "Yurd Notel" mehmanxanası, Lerikdə elektrik stansiyası, Xızıda "Yeni Yaşma" Külək Elektrik Parkı, Qubada meyvə emalı zavodu, "ABAD Factory" istehsalat kompleksi, Mərkəzi xəstəxana, İmişli rayonunda Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi, həmçinin Bakı, Şəki, Abşeron, Balakən, Şamaxı və Tovuzda ümumilikdə 5.948 şagirdlik 6 məktəb binası və digər obyektlər var.

Ümumi inkişaf nəqliyyat, informasiya və rabitə sektorlarının fəaliyyətini də xeyli canlandırmışdır. Hesabat dövründə ölkə üzrə 188,9 milyon ton yük və 1,6 milyard nəfərdən çox sərnişin daşınmışdır ki, bu da ötən ilin eyni dövründəkindən müvafiq olaraq 1,5 və 1,3 faiz çoxdur. İnformasiya və rabitə müəssisələri isə bu dövrdə 1 milyard 530,3 milyon manatlıq müxtəlif xidmətlər göstərmişdir ki, onların da 72,8 faizindən əhali istifadə etmişdir. Keçən ilin müvafiq aylarına nisbətən dəyər ifadəsində 8,8 faiz artan həmin xidmətlərdən əldə olunan gəlirin 81,7 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Pərakəndə ticarət dövriyyəsində də yüksək artım qeydə alınmışdır. Belə ki, sözügedən dövrdə ölkədəki pərakəndə ticarət şəbəkəsindən əhaliyə 29,4 milyard manatlıqdan çox məhsul satılmış, 7,1 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. Ötən ilin eyni dövrünə nisbətən əmtəə dövriyyəsi 2,6, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə edilən gəlir 2,7 faiz artmışdır.

Bu sektordakı artımda qiymətlərdən daha çox əhalinin gəlirlərinin yüksəlməsi rol oynamışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-sentyabr aylarında muzdla işləyənlərin nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 2,8 faiz artaraq 540,5 manat olmuşdur. Ümumilikdə əhalinin gəlirləri 10 ay ərzində nominal ifadədə 9,2 faiz çoxalaraq 43 milyard 871,5 milyon manata çatmışdır.

Qiymətlərə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-oktyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,4, o cümlədən ərzaq 2,1, qeyri-ərzaq 2,8, ödənişli xidmətlərin tarifləri 2,6 faiz bahalaşmışdır.

Bir neçə cümlə də Azərbaycanın xarici ticarət əlaqələri barədə. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla cari ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsinin həcmi 23 milyard 159,4 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 65,9 faizini ixrac, 34,1 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 7,3 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin 9 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,3, o cümlədən ixrac 37,9, idxal 28 faiz artmışdır. Real ifadədə dövriyyə 0,2, o cümlədən idxal 2,3 faiz azalmış, ixracda 0,9 faiz artım qeydə alınmışdır. Bu artım əsasən qeyri-neft məhsulları hesabına olmuşdur. Belə ki, hesabat dövründə ölkə üzrə qeyri-neft məhsullarının ixracında ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 12,9, real ifadədə 3,5 faiz artım müşahidə edilmişdir. Bu isə qeyd olunan müddətdə 1 milyard 207,4 milyonluq qeyri-neft məhsullarının ixracı deməkdir.

***"Azərbaycan"***

# Ölkə rəhbərindən yüksək diqqət görürük

Ermənistanın Azərbaycan torpaqlarına qarşı apardığı işğalçılıq siyasəti digər azərbaycanlı oğulları kimi, Məzahir Alıyevi də rahat buraxmırdı.



Odur ki, 1991-ci ildə könüllü olaraq silaha sarıldı və torpaqlarımızın müdafiəsinə qalxdı. Özünün də hərbi işlərdə böyük təcrübəsi var idi. İki il Əfqanıstanda sülhməramlı qüvvələrin tərkibində xidmət etmişdi.

1990-cı ilin əvvəllərində Gədəbəyin Başkənd ərazisində gedən qanlı döyüşlərdə təcrübəsindən istifadə edərək tez-tez hücuma keçir, düşmənin canlı qüvvəsini məhv edirdi. Beləcə, üç ilə yaxın gizir rütbəsi ilə düşmənə qarşı amansız döyüşlərdə iştirak etdi. Lakin günlərin birində Milli Qəhrəman İsgəndər Aznaurovla birlikdə hücuma keçərkən ağır yaralandı və bu, onun son döyüşü oldu... Cənazəsi Şəmkirə gətirilərək Dəllər qəsəbə qəbiristanlığında dəfn olundu.

Məzahir Alıyev ailəli idi. Ailəsində iki qız, bir oğlan böyüyürdü. Lakin amansız ölüm ona övladlarını boya-başa çatdırmağa imkan vermədi. Həyat yoldaşı Saida Alıyevanın dediyinə görə, əvvəllər çox çətinlik çəkdi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra çətinliyi bir qədər azaldı. Şəhid ailələrinə dəstək olan ulu öndərin qayğısı ilə bir çox problemləri həll edildi. Dövlət onun ailəsinə rayon mərkəzində hər bir şəraiti olan üçotaqlı mənzil verdi. Əkib-becərmək və ailəsini dolandırmaq üçün 5 sot torpaq sahəsi ilə təmin olundu. Hazırda övladlarının üçü də ailəlidir. İndi onun 9 nəvəsi, bir nəticəsi var.

Söhbət zamanı Saida Alıyeva dövlət başçısından olduqca razılıq etdi. Dedi ki, həyat yoldaşı Məzahir şəhid olduqdan sonra ailə daim dövlətin diqqət mərkəzində olub. Yaşadıqları evin yerləşdiyi küçə Məzahir Alıyevin adını daşıyır. Hər ay 242 manat Prezident təqaüdü alır. Özü də rayon xəstəxanasında çalışır. Hər ay 300 manatadək əməkhaqqı alır.

Saida dövlət başçısının bu ilin aprel ayının 19-da imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" fərmanından sözü də özü açdı. Dedi ki, respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi barədə qərar məni çox sevindirdi. Lazımi sənədləri toplayıb göstərilən ünvana göndərdim. Bu günlərdə isə telefonuma həmin məbləğin köçürüldüyü barədə mesaj gəldi. Sağ olsun, Prezidentimizi. Biz şəhid ailələrini heç vaxt unutmur. Demək olar ki, bütün ehtiyaclarımızı ödəyir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Onlar bir çox imtiyazlara malikdirlər

Vətənimizin ərazi bütövlüyünün bərpası yolunda qəhrəmanlıqla həlak olmuş igid Azərbaycan övladlarının xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin humanitar siyasətinin prioritetlərindən sayılır. Bunun üçün yürüdülən siyasət, həyata keçirilən layihələr şəhidlərimizin müqəddəs ruhuna sonsuz ehtiram, bu kateqoriyaya aid olan ailələrə dövlət qayğısının bariz nümunəsidir.

Dövlət başçısının şəhid ailələrinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atdığı hər bir addım xalqımız tərəfindən böyük rəğbət və hörmətlə qarşılanır. Bununla yanaşı, bəzi şəxslərin dövlətin belə humanist siyasətindən haqsız şəkildə "bəhrələnmək" cəhdləri də olur. Bu isə antiazərbaycançı şəbəkənin, ölkədə xaos yaratmaq istəyənlərin diktəsi ilə həyata keçirilməyə cəhddən başqa bir şey deyil, müsbət işlərə kölgə salmaq məqsədi daşıyır.

1997-ci il avqustun 2-dək ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilən hərbi qulluqçuların vərəsələrinə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli fərmanı ilə birdəfəlik 11 min manat ödəmələr nəzərdə tutulub. Bu fərman bir daha təsdiq edir ki, dövlət başçısı şəhidləri nəinki unutmur, həm də onların müqəddəs ruhunu uca tutur, ailələrinə böyük ehtiram göstərir.

Artıq yüzlərlə şəhid ailəsi həmin yardımı aldığını bildirir və dövlət başçısına minnətdarlığını ifadə edir. Redaksiyamıza belə təşəkkür məktubları daxil olmaqdadır. Quba rayonundan Zöhrab Qaraxanovun, İmaməddin Kərimovun, Mədət Əliyevin, Rəna Cəfərovanın, Yavər Abdullayevanın, Zərqələm İbrahimovanın, Ayxanım İsmayılovanın, Əmirsulan Novruzovun, ümumiyyətlə, 37 şəhid ailəsi adından yazılmış məktubda qeyd edilir ki, müharibə əlilləri ilə yanaşı, şəhid ailələrinin də ildən-ilə mənzillə təminatı proqramı həyata keçirilir: "Şəhid ailələri aylıq təqaüd, pensiya və müavinətlərlə, bu tip sosial ödənişlərlə mütəmadi şəkildə, artıqlaması ilə təmin edilir. Bütün bunlar şəhid ailəsi üzvləri üçün nəzərdə tutulan üstünlüklər (imtiyazlar), ali və ya orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil alan şəhid ailələri övladlarının təhsil haqqının dövlət büdcəsi hesabına ödənilməsi və digər təminatlar bir daha göstərir ki, ölkədə aparılan sosial siyasətdə şəhid ailələrinin rifah halının yaxşılaşdırılması başlıca hədəflərdən biridir".

Məktubda daha sonra deyilir ki, şəhid hərbi qulluqçuların vərəsələrinin 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olunması məqsədilə bu ilin aprel ayında dövlət başçısının imzaladığı fərman indiyədək şəhid ailələrinə göstərilən qayğının davam etdirilməsinə yönələn humanist addımdır: "Artıq bizlər - şəhid hərbi qulluqçuların ailələri fərmana əsasən birdəfəlik ödəmə ilə təmin olunuruq. Həmin vəsait, təbii ki, bizim həyat şəraitimizin yüksəlməsinə böyük köməkdir. Biz, eyni zamanda, birdəfəlik ödəmənin verilməsini uzun illər bundan əvvəl Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış qeyrətli vətən övladlarının xatirəsinin daim əziz tutulduğunun, onların ailə üzvlərinə diqqət və qayğının zaman keçdikcə daha da artdığının əyani təsdiqi kimi dəyərləndiririk. Buna görə də əziz Prezidentimizə təşəkkür edir və müstəqil Azərbaycanın firavanlığı naminə apardığı siyasətdə ona uğurlar arzulayırıq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Şəhidlərimizin müqəddəs ruhuna ehtiram

Arif Mustafa oğlu Əliyev dünyaya 1973-cü il iyunun 5-də Balakən rayonunun Qazma kəndində göz açıb. Çağırış yaşı çatanda həmyaşıdları ilə birgə vətən borcunu vermək üçün hərbi xidmətə gedib. 1993-cü il iyun ayının 15-də Ağdamın Qalayçılar kəndində gedən döyüşlər zamanı itkin düşüb. 1999-cu ilin fevral ayının 26-da hərbi qulluqçunun ölüm şəhadətnaməsinin verilməsi və ya ölmüş elan edilməsi haqqında məhkəmə qərar çıxarıb.

Arifin atası Mustafa kişi ilə də söhbətimiz əsasən bu barədə oldu. Dedi ki, Arif ailənin ilk övladı olub. Yeniyetməlik dövrlərindən ağlı, fərasəti, çevikliyi ilə seçilirdi. Onun itkin düşməsi nə qədər ağır olsa da, o vaxtdan dövlətin qayğısı ilə əhatə olunmuşuq. İndi də "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" fərmanla əlaqədar sığorta ödənişlərinin verilməsinə başlanmışdır.

Biz buna görə də dövlət başçısı cənab İlham Əliyevə ürəkdən minnətdarıq. Hər bir şəhid ailəsinin Prezident təqaüdü alması, mənzil və digər sosial məişət problemlərinin həlli onun həyat səviyyəsinin yüksəlməsinə çox böyük dəstəkdir.

Mustafa kişi axırda dedi ki, bu gün ailənin qəlbini sızladan Arifdən heç bir xəbər-ətərin olmamasıdır. Mən də, anası Cəmilət də, o vaxtdan 25 il keçməsinə baxmayaraq, hər dəfə qapı döyüləndə onun içəri daxil olacağına ümidimizi itirmirik. Ona da əminik ki, tezliklə işğal altında olan torpaqlarımız mənfur düşmən tapdağından azad ediləcək, xəbər-ətərsiz itkin düşənlərin də taleyinə aydınlıq gələcək.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

## Dördüncü sənaye inqilabı:

# Azərbaycan üçün perspektivlər



Biz artıq heyrətamiz bir dövrdə yaşayırıq. Texnologiyalarda radikal dəyişikliklər böyük sürətlə baş verir. Dünən fantastik hesab etdiyimiz layihələr üzərində bu gün artıq innovasiya şirkətləri çalışır, nailiyyətlər əldə edirlər. Hər ötən gün biz elə bir texnoloji inkişaf mərhələsinə çatırıq ki, həyatımızı yeni-yeni nailiyyətlərsiz təsəvvür edə bilmirik...

### Böyük dəyişikliklər erası

Artıq hər birimiz həyatımızı, xüsusilə də övladlarımızın həyatını 100 faiz dəyişəcək yaxın gələcək barədə düşünürük. Hazırda biz dördüncü sənaye inqilabına qədəm qoymuşuq. Əgər birinci sənaye inqilabı buxar maşınının kəşfi ilə istehsalın mexanikləşməsi, ikinci sənaye inqilabı elektrik enerjisinin kütləvi istehsalı ilə sənayeləşmə, üçüncü sənaye inqilabı istehsalın avtomatlaşdırılması üçün elektronika, kompüterləşmə və informasiya texnologiyalarından kütləvi istifadəni nəzərdə tuturdusa, dördüncü sənaye inqilabı ("Sənaye 4.0") rəqəmsallaşmanı, texnologiyaların birləşməsi və fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirir. Artıq qədəm qoyduğumuz dördüncü sənaye inqilabında dəyişikliklərin xüsusiyyəti o qədər fundamentaldır ki, dünya tarixi həm böyük imkanlar, həm də potensial təhlükələrlə dolu olan buna bənzər bir dövrlə hələ qarşılaşmayıb. Bəs bu dördüncü sənaye inqilabında bizi nə gözləyir? İnsanın iştirakı olmadan idarə edilən avtomobillər, 3D çap, qabaqcıl robot texnikaları, yeni materiallar, genlərin redaktə edilməsi, əşyaların interneti (IoT - Internet of Things), insan bədəninə implantasiya edilmiş telefon, şirkətlərin rəhbərliyinin tərkibində süni intellekt, blokçeyn vasitəsilə verginin toplanması və daha nələr, nələr...

Dördüncü sənaye inqilabı miqyası, həcmi və mürəkkəbliyi baxımından, bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Qarşıda bizi süni intellekt, robot-avtomobillər, nanotexnologiya, biotexnologiya və s. daxil olmaqla ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayış gözləyir.

Dördüncü sənaye inqilabı bəşəriyyətə, həmçinin daha uzun, daha sağlam və daha fəal həyat yaşamaq imkanı verir. Biz inkişaf etmiş ölkələrdə doğulmuş uşaqların dörddəbirinin nəzərdə tutulan ömür uzunluğunun yüz il olduğu bir dünyada yaşayırıq. Buna görə də, biz əmək qabiliyyətli yaşında olan əhali, təqaüd yaşı və həyatın fərdi planlaşdırılması kimi məsələləri yenidən nəzərdən keçirməliyik. Bu müzakirələr zamanı bir çox ölkələrin üzləşdikləri çətinliklər göstərir ki, biz bu dəyişikliklərə hələ hazır deyilik və bir çox hallarda onları dərk etmirik.

Texnoloji inkişaf şübhəsiz ki, biznesi də necə və hansı sürətlə aparmağımıza təsir göstərir. Dronlar, süni intellekt, biomühəndislik, kvant kompüterlər və digər yeni texnologiyalar sahibkarlara xərcləri azaltmaqda, müştəriləri cəlb etməkdə və məhsuldarlığı artırmaqda kömək edir.

### "Sənaye 4.0" yeni inkişaf strategiyası tələb edir

Üzləşdiyimiz dövr bizdən artan rəqabətə tab gətirmək üçün yeni strategiyalar düşünməyi tələb edir. **Çünki dördüncü sənaye inqilabı iqtisadiyyatının rəqabət qaydaları əvvəlki dövrlərin qaydalarından fərqlənir.** Burada rəqabətə tab gətirmək üçün bütün formalarda innovasiyaları tətbiq etmək lazımdır. **Bu isə o deməkdir ki, hazırda bir çox ölkələrdə tətbiq edilən əsasən, xərclərin azaldılmasına yönəldilmiş strategiyalar innovasiyanın inkişafını nəzərdə tutan strategiyaya nisbətən daha az effektiv olacaq.**

Yeni sənaye inqilabını çox vaxt kompüter və telefon əməliyyatı sistemləri nümunəsində rəqəmsal göstərici əlavə etməklə "Sənaye 4.0" kimi adlandırırlar. İlk dəfə bu termin 2011-ci ildə səslənib. Almaniya hökuməti "Sənaye 4.0"-ü Almaniyanın "Yüksək Texnologiya Strategiyası 2020"-nin ayrılmaz tərkib hissəsi adlandırıb. Sonradan yaradılan işçi qrupu bununla bağlı öz baxış nöqtəsini təyin edib və "Sənaye 4.0"-ü istehsalın təkcə ayrı-ayrı mərhələlərinə cavabdeh olan deyil, bütünlükdə onu müstəqil şəkildə optimallaşdıran və nəzarətdə saxlayan kiber-fiziki sistemlərin sənaye istehsalı və tətbiqi kimi qiymətləndirib.

Dördüncü sənaye inqilabının artıq geniş vüsət almağa başlaması faktı təkcə internetə ümumi çıxışla kifayətlənmir. 2016-cı il Davos Dünya İqtisadi Forumunun yekun hesabatına görə, mobil cihazların, internet sensorların və s. hər yerdə yayılması, alış-verişdən tutmuş xəstəyə qulluğadək real vaxt rejimində ətraflı və dəqiq məlumatları əldə etməyə imkan vermişdir. Hazırda "Sənaye 4.0" bağlantı xidmətləri (connectivity), avtomatlaşma və süni intellektin geniş tətbiqi ilə davam edir.

"Sənaye 4.0" inkişafda yeni üfüqlər açmaqla yanaşı, insanlar üçün də yeniliklər və bir sıra gözlənilməzliklər gətirəcək. Davos Forumunun hesabatına görə, 2020-ci ilə dünyada təxminən 4,7 milyon ofis işçisi, istehsalatda 1,6 milyon, tikintidə isə təxminən 0,5 milyon insan öz iş yerini itirəcək. Lakin eyni zamanda biznes və maliyyə sahəsində demək olar ki, 500 min, menecment və İT sahəsində 400 min, memarlıq və mühəndislik sahəsində 300 min, satış sahəsində isə 300 min yeni iş yeri yaranacaq. Yəni "Sənaye 4.0" robotlaşma təkcə insanların öz iş yerlərini itirməsi ilə deyil, həmçinin biznesin ən fərqli sahələrində yeni imkanların yaranması ilə müşayiət olunacaq.

### Azərbaycan üçün perspektivlər

Yeni sənaye inqilabı dövründə hansı ölkələr lider olacaq? İsveçrənin tanınmış maliyyə holdinqi "UBS"-in tədqiqatına görə, bu dövrdə inkişaf etmiş ölkələr qalib olaraq qalacaqlar. Qeyd olunur ki, məhz onlar dördüncü sənaye inqilabından potensial mənfəət əldə edən ölkələrin sıralamasında ilk 15 yeri tuturlar. İnkişaf etməkdə olan ölkələr isə istehsalın universal avtomatlaşdırması şəraitində artıq ehtiyac duyulmayan orta və aşağı səviyyəli işçi qüvvəsinə görə ciddi şəkildə geriləmə riski ilə üzləşə bilərlər.

Bəs bu yeni perspektivdə Azərbaycanı nə gözləyir? Hazırda ölkəmiz nüfuzlu reytinqlərdə hər il pozitiv inkişaf dinamikası göstərir. Azərbaycan İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) "State of Broadband Report 2018" sənədinə əsasən, Azərbaycan MDB məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (79 faiz). Dünya Bankının "Doing Business 2019" hesabatında isə ölkəmiz Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasına düşüb və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Hazırda aparılan rekord sayda islahatlar imkan verir ki, Azərbaycan texnoloji cəhətdən daha da inkişaf etsin. Lakin heç şübhəsiz inkişaf etmiş ölkələrin tətbiq etdiyi texnoloji inkişaf modelləri qarşısında ölkəmizin yeni texnologiyalar tətbiq etmək, innovasiyalara getmək tempi daha da güclənməlidir. Bunun üçün isə təhsil modelinin modernləşməsindən tutmuş ayrı-ayrı şirkətlərdə işçi biznes proseslərinin təşkilində müvafiq biznes mədəniyyətə keçidin aparılması, inkişafın aparıcı qüvvəsi olan telekommunikasiya sferasında yeni ekosistemin yaranması, sabit (fixed) texnoloji bazanın qurulması və yenilənməsi vacibdir.

Müşahidələr göstərir ki, "Sənaye 4.0" dövründə ölkələr infrastruktur inkişafına vəsait ayırır, geri qalmamaq üçün yatırımlar edirlər. Məsələn, Almaniya sənaye infrastrukturunun dəstəklənməsi və inkişafına hər il 40 milyard avro ayırır. 2014-cü ildən etibarən Böyük Britaniya "HyperCat" adlanan "Əşyaların İnterneti"nin inkişafına 70 milyon funtdan artıq vəsait ayırır. Bu, "maşınlar üçün dünya şəbəkəsi" robot və kompüterlərin qarşılıqlı əlaqədə olduqları və insanın iştirakı olmadan tapşırıqları yerinə yetirən məlumat bankıdır. Fransa isə 2015-ci ildən etibarən fransız İT şirkətlərinin və startapların inkişafını dəstəkləyən "La French Tech" proqramına ildə 200 milyon avro ayırır. Bu mənada Azərbaycanda da iqtisadiyyatın müxtəlif sahələrinə, xüsusilə telekommunikasiya sferasına yeni investisiyaların yatırılması lazımdır. Burada isə dövlətin münbit şərait yaratması fonunda özəl sektorun müxtəlif layihələri həyata keçirməsi, daha fəal investisiya proqramları icra etməsi, infrastrukturu genişləndirməsi vacibdir. Qeyd edək ki, dünya təcrübəsində da inkişaf etmiş ölkələrdə dövlətin nizamlayıcı funksiyanı yerinə yetirməsi fonunda iri infrastruktur layihələri məhz özəl sektorun müxtəlif sahələrə, xüsusilə telekommunikasiyaya investisiya yatırması, texnoloji təməli yeniləməsi, innovativ proqramlar icra etməsi ilə reallaşdırılır.

**Həmçinin "Sənaye 4.0" şəraitində Azərbaycanda innovasiyaları tətbiq etmək imkanına sahib olan, ekosistemi dərindən bilən intellektualların yetişməsi və sayının çox olması vacibdir. Çünki innovasiyaları insan yaradır və ölkənin İT ekosisteminin yenilənməsi və inkişafı üçün yüksək peşəkarlığa sahib İT mütəxəssisləri lazımdır. Başlıca məqamlardan biri də onların xaricə axınının qarşısının alınmasıdır.**

Rəqəmsal dövrdə əhəmiyyətli inkişafa nail olmağın, dördüncü sənaye inqilabı dövründə geri qalmamağın yollarından digəri isə ölkəmizdə biznes və tətbiqi elm arasında əməkdaşlığın gücləndirilməsi, innovasiya məkanlarının yaradılması, universitetlərin gələcəyin texnoloji inkişafını irəli aparmağa qadir olan mütəxəssislər yetişdirməsi, eləcə də dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsidir.

Hazırda "Sənaye 4.0" Azərbaycana qlobal iqtisadi rəqabətdə öz rolunu dəyişmək imkanı verir. Bu isə ölkə iqtisadiyyatının mövcud potensialından tam şəkildə istifadə etmək, innovasiyaları tətbiq etməklə mümkündür. Azərbaycanın mövcud zaman kəsiyində malik olduğu imkanlardan tam yararlanaraq texnoloji sıçrayışla və innovativ həllərlə **Regionun Rəqəmsal Mərkəzinə çevrilməsi** imkanı olduqca böyükdür.

***Fuad ALLAHVERDİYEV,***
***"AzerTelecom" MMC-nin baş icraçı direktoru***



Azərbaycan professional musiqisinin banisi, Dövlət Konservatoriyasının yaradıcısı, xalq artisti, Stalin Mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Müsəlman Şərqində ilk operanın əsasını qoyan böyük sənətkar Üzeyir bəy Hacıbəylinin vəfatından 70 il ötür. Zəngin tərcümeyi-halı, müxtəlif və mürəkkəb dövrlərdən keçən ömür yolu, çoxcəhətli yaradıcılığı, parlaq şəxsiyyəti, insanpərvərliyi ilə musiqi tarixində əvəzolunmaz yeri olan bu dahi insan misilsiz əməyi ilə öz xalqına zəngin bir "Üzeyir dünyası" qoyub getmişdir. "Üzeyir dünyası"nın bir-birini saf məhəbbətlə sevən "Leyli və Məcnun"u, "Mən nə qədər qoca olsam da dəyərəm min cavana" iddiası irəli sürən Məşədi İbadı, gələcək ömür-gün yoldaşını axtarıb tapmaq üçün "Arşın malçı"ya çevrilən Tacir Əsgəri, qəhrəman "Koroğlu"su kimi sakinləri vardır ki, hər biri özü-özlüyündə ayrıca dünyadır. Üzeyir bəy bu sakinlərin xarakter-obrazını musiqinin dili ilə ən maraqlı, ən baxımlı tərzdə dinləyiciyə, tamaşaçıya məharətlə təqdim etmişdir və onlar ölməz, əbədiyaşar ömür qazanmışlar.

# Üzeyir dünyası

## Bu gün dahi bəstəkarın vəfatından 70 il keçir









Üzeyir bəyin musiqisinin gözəlliyi, parlaqlığı, möhtəşəmliyi onun sənətinə, xalqına olan odlu-alovlu sevgisinin, vətənpərvərliyinin və yüksək zövqünün bəhrəsidir. Öyrənib-öyrətmək eşqi və həvəsi ilə yaşayan, daim yeniliklər axtarışında olan Üzeyir bəy maneələrə və çətinliklərə baxmayaraq, yüksək xidmətləri ilə musiqi mədəniyyətinə böyük töhfələr vermişdir. Yeni janr, ifaçılıq vasitələrinin, musiqi kollektivlərinin yaranması uğrunda gecə-gündüz çalışaraq məqsədinə nail olmuşdur. O, təkcə musiqi bəstələmək, əsər yaratmaqla kifayətlənməyərək xalqının maariflənməsi naminə böyük işlər görmüş, əsl mübariz olmuş, Azərbaycanda ilk olaraq Xalq Çalğı Alətləri Notlu Orkestrini yaratmış, Azərbaycan Dövlət Xorunun, ilk simli kvartetin, ilk musiqi məktəbinin və Azərbaycan Dövlət Konservatoriyasının banisi olmuşdur. Görkəmli Azərbaycan şairi, dramaturq, publisist və tərcüməçi Məmməd Səid Ordubadi Üzeyir bəy haqqında xatirələrində yazırdı: *"...Üzeyir bəy ilə yaxından tanışlığımız 1929-cu illərdən başladı. O zaman Azərbaycan musiqisinin inkişaf yolları geniş müzakirə olunurdu. Üzeyir bəy bu məsələdə hamıdan artıq rahatsız olur və musiqimizin gələcəyi üçün düşünürdü. Partiya və hökumətin köməyi ilə Üzeyir bəy Azərbaycan radio komitəsinin təşəbbüsü nəticəsində xalq çalğı alətlərindən notlu orkestr düzəltməyə başladı. Həmin bu zamanlarda mən Azərbaycan radio komitəsinin ədəbiyyat şöbəsini təşkil və idarə edirdim. Üzeyir bəylə tez-tez görüşürdüm. Bəzən onun ifaçılarla keçdiyi məşqlərlə maraqlanırdım və mən Üzeyirin müvəffəqiyyət qazanacağına qəti inanmağa başladım..."*

Xalqının mədəniyyətini yüksəklərdə görmək arzusu ona musiqi sənətinin professional, möhkəm təməllər üzərində yaradılmasında cəsarətli, qətiyyətli addımlar atmağa güc verirdi. Üzeyir bəy öz uzaqgörənliyi sayəsində Azərbaycan musiqi sənətinin parlaq inkişaf perspektivlərini duya bilmişdir: *"Azərbaycan musiqi sənətinin parlaq inkişaf perspektivləri vardır. Lakin cəsarətli olmaq, yaxşı oxumaq və məhsuldar işləmək lazımdır. Xalqın mənəviyyatını duymaq, onun ümid və arzularının ifadəçisi olmaq, nikbinliyini, əhvali-ruhiyyəsini musiqi vasitəsi ilə əks etdirmək lazımdır".* Bu qiymətli fikirlər bəstəkarın özünə məxsusdur. O, dediyi kimi, xalqın mənəviyyatını dərindən hiss edərək onun sevinc və kədərini, arzu və istəklərini öz musiqisində - yaradıcılığında əks etdirmişdir. Üzeyir bəyin sənət zirvəsinə yüksəlməyinin səbəbi də elə onun xalq yaradıcılığı xəzinəsindən bəhrələnib, musiqini xalqa daha yüksək bir səviyyədə çatdırması olmuşdur. Yaradıcılığı boyu Üzeyir bəy həm yüksək zövqlü bəstəkar, həm həqiqəti görə bilən və yazılarında kəskin, lakin düşündürücü yumorla tənqid edən bir publisist, öz biliklərini sevimli tələbələrinə aşılayan və müdrik nəsihətlərini, köməyini əsirgəməyən pedaqoq idi. O, görkəmli ictimai xadim kimi daim xalqına vicdanla, ləyaqətlə xidmət etmişdir. Musiqi əsərlərində vətənə hədsiz məhəbbət, mərdlik duyğularını tərənnüm edən Üzeyir bəy Hacıbəyli Böyük Vətən müharibəsi illərində Azərbaycan xalqının igid oğullarını "Yaxşı yol" deyə cəbhəyə yola salır, öz "Çağırış"ı ilə "Şəfqət bacısı"nı Vətən ordusuna kömək etməyə dəvət edirdi. Həmçinin bununla kifayətlənməyərək, orduya öz şəxsi hesabına maddi yardımını da əsirgəmirdi. Bu səbəblə İ.V.Stalinin Üzeyir bəyə göndərdiyi teleqram bu gün bəstəkarın ev-muzeyində qorunan, onun yaradıcılığının və fəaliyyətinin əksi olan unikal sənədlər sırasındadır.

*"Yoldaş Hacıbəyov! Qızıl ordunun zirehli tank qüvvələrinə göstərdiyiniz qayğıya görə Sizə minnətdarlığımı bildirirəm. Mənim Salamımı və Qızıl ordunun təşəkkürünü qəbul edin.*

*İ.V.Stalin "*

Onun haqqında deyilən sözləri, yazılan xatirələri oxuduqca, sadə və təvazökar, mehriban, eyni zamanda mübariz və qətiyyətli siması əks olunan fotoşəkillərinə baxdıqca və ecazkar musiqisini dinlədikcə xatirəsinin nə qədər əziz və əbədi olduğunu söyləmək istəyirsən.

Üzeyir Hacıbəylinin xatirəsini əbədiləşdirmək haqqında Azərbaycan Nazirlər Sovetinin 16 fevral 1949-cu il tarixli 92 nömrəli qərarında Ü.Hacıbəylinin arxivinin və əlyazmalarının toplanılıb, onların lazımi qaydada saxlanılması və öyrənilməsinin təmin edilməsi; Azərbaycan Dövlət Konservatoriyasına, Bakı şəhərində Azadlıq küçəsinə, Naxçıvan Müəllimlər İnstitutuna, Şuşa şəhərində orta məktəbə Üzeyir Hacıbəylinin adının verilməsi; Bakı şəhərində keçmiş Ketsxoveli (indiki Şamil Əzizbəyov) küçəsində 75 nömrəli evdə və Şuşa şəhərində Ü.Hacıbəylinin ev-muzeylərini yaratmaq və Hüsü Hacıyev küçəsindəki "Monolit" binada xatirə lövhəsinin qoyulması tapşırılmışdı. Üzeyir bəy Hacıbəyli 1915-1942-ci illərdə hazırda muzey kimi fəaliyyət göstərən evdə yaşayıb yaratmış, daha sonra isə Bakının indiki Azərbaycan prospekti ilə İstiqlaliyyət küçəsinin kəsişməsində yerləşən "Monolit" binaya köçmüş və ömrünün sonuna kimi (1948) həyat yoldaşı Məleykə xanımla burada yaşamışdır.

Bəstəkarın evinin (Şamil Əzizbəyov küç. 67/69) muzey kimi fəaliyyətə başlamasının 43-cü ilidir. Azərbaycan xalqının yetirdiyi bu böyük şəxsiyyətin qoyub getdiyi mənəvi sərvət də məhz onun ev-muzeyində qorunub saxlanılır. Muzey 20 noyabr 1975-ci ildə ümummilli lider Heydər Əliyevin yaxından köməyi və səyi nəticəsində Bakıda Şamil Əzizbəyov küçəsi (keçmiş Verxnyaya Priyutskaya, sonra Ketsxoveli ) ev 67-də dahi bəstəkarın yaşadığı evdə təşkil olunmuşdur. Onun ruhunu yaşadan ilk ev-muzeyi isə Şuşada uşaqlıq illərinin keçdiyi evdə 1959-cu ildə açılmışdı. Bəstəkarın mənalı və zəngin həyat yolunu böyük məhəbbətlə əks etdirən Bakıdakı ev-muzeyi, bu ocaq əlbəttə ki, müqəddəs olmaya bilməz. Onun burada əlinin toxunduğu hər bir əşyası - kitab dolabındakı kitabları, skripkası, "Koroğlu"nun ilk notlarını yaratdığı royalı, iş masası, hətta adicə qələmi belə öz adiliyindən çıxmışdı. Onların hamısı bugünümüzün misilsiz eksponatına çevrilmişdir. Vaxtilə böyük şairimiz Bəxtiyar Vahabzadənin dediyi sözləri indi kitablarda, xatirələrdə sevə-sevə oxuyuruq: *"...Mənim üçün Üzeyir bəy bir dünyadır. Birinci növbədə ona görə ki, bu böyük insan özünün də milli varlığının üzərində boy atdı, ucaldı. Üzeyir bəy sənətindəki kimi ilk növbədə şəxsiyyətdir, vətəndaşdır. Onun adına yaradılmış muzey xalqımızın pərəstiş yeri, inam ocağı olmalıdır. Bu muzeyi təşkil edənlərə eşq olsun".*

Hərdən düşünürsən ki, bu evin divarlarının danışmağa dili olsaydı, yəqin ki, Üzeyir bəy haqqında ən şirin, ən maraqlı xatirələri bizə söyləyərdilər. Axı onlar Üzeyir bəyin dostları, həmkarları ilə birgə bu evdə yaradıcılıq görüşlərinin, məzəli, şirin söhbətlərinin şahidi olublar.

Üzeyir bəyin ömür yolu vərəqləndikcə insan heyrətə gəlir. Çoxşaxəli fəaliyyəti ilə - bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim kimi fəaliyyəti və hər kəsə öz kömək əlini uzadan bir insan olaraq neçə-neçə şair və yazıçının - görkəmli şəxsiyyətlərin qələmini dilə gətirmişdir. Onun haqqında deyilən sözlər, yazılan məqalələr, oçerklər bitmir, tükənmir. Vəfatından sarsılan çiyin-çiyinə çalışdığı dostu, görkəmli xalq şairi Səməd Vurğun "Eşq olsun sənətkara!" şeirində öz qəlb sarsıntısını, üzüntüsünü bütünlüklə əks etdirmişdir:

*...Ölüm sevinməsin qoy, ömrünü vermir bada*
*El qədrini canından daha əziz bilənlər.*

*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər...*

*Mən bu kiçik şeirimi yazıram göz yaşımla,*
*Çünki vidalaşıram bir ürək sirdaşımla.*

1948-ci ilin 23 noyabrında Üzeyir bəy uzun sürən xəstəlikdən sonra vəfat edir. Üzeyir Hacıbəylinin simasında musiqi incəsənəti təkcə istedadlı bəstəkarını deyil, həmçinin nəhəng alim və nəzəriyyəçi, Azərbaycan musiqisinin parlaq zəkalı tədqiqatçısını itirmişdir. Çox səxavətli, xalqını sevən bu sənətkar xalq tərəfindən də böyük bir məhəbbətlə sevilirdi. 1948-ci il noyabrın 24-də mərhumun dəfn edildiyi gün insanlar böyük alimə olan sevgilərini nümayiş etdirdi. Bəstəkarın vəfatından 70 il ötməsinə baxmayaraq, həmin gündən qalan fotoşəkillərə baxdıqca, çoxlu sayda göndərilmiş başsağlığı teleqramlarını oxuduqca o günün kədərini, ağırlığını daha aydın və dərindən duyursan. Leninqrad Ali Dəniz Yolları Məktəbində, Leninqrad Su Nəqliyyat Mühəndisləri İnstitutunda və Leninqrad Rabitə İnstitutunda təhsil alan azərbaycanlı tələbələr tərəfindən 1948-ci ilin 24 noyabrında "Kommunist" qəzeti redaksiyasına göndərilmiş başsağlığı məktubunda oxuyuruq:

*"Dünən radio vasitəsilə verilən son xəbərlərdə Azərbaycanın ən gözəl bəstəkarı, SSRİ-nin xalq artisti Üzeyir Hacıbəyovun vəfatını eşidib, pərişan olduq. Odur ki, xahiş edirik ki, Leninqrad ali məktəblərinin tələbələri adından onun ailəsinə başsağlığı verin".*

Biz fəxr edirik ki, bu gün Azərbaycan Respublikasının üçrəngli bayrağı da zirvələrdə məhz Üzeyir bəyin ölməz musiqisinin - yazdığı himnin sədaları altında şərəflə dalğalanır. Biz, onun yazdığı musiqi əsərlərinin janrından, formasından və nəhayət, səslənmə müddətindən (süresindən) asılı olmayaraq, bu doğma musiqini dinləməyə nəinki borcluyuq, bu musiqi bizim qanımızda, canımızda səslənir. Üzeyir bəyin yaradıcılığı, onun yaratdığı musiqiləri, əsərləri əbədiyaşardır. Hər bir azərbaycanlı bu böyük şəxsiyyətin adını yüksəklərdə tutmalı, qoyub getdiyi mənəvi sərvəti onun adına layiq qorumalı, gələcək üçün yaşatmalıdır.

***Aytən HEYDƏROVA,***
***Üzeyir Hacıbəylinin ev-muzeyinin əməkdaşı***

## "Bakı Metropoliteni" QSC elektrik çəngəlli yükləyicinin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91), ala bilərlər.

**LOT-1. Elektrik çəngəlli yükləyicinin satın alınması**
**İştirak haqqı-200 manat**
**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı: AZƏRTÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 yanvar 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 yanvar 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



*Təkrar*

## Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1.** Hesablama texnikası və avadanlıqlarına xidmətlərin göstərilməsi.

**LOT-2.** İnzibati binada profilaktik dezinfeksiya işlərinin aparılması.

Tender iştirakçılarına təklif edilir ki, təklifləri möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1005. M.İbrahimov küçəsi, 8**
**Əlaqələndirici şəxs: Sadıxov İsmayıl. Tel.: 050-230-01-22**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kodu: 210005**
**SWIFT: CTREAZ22**
**M/h: AZ41NABZ01360100000003003944**
**Strateji Araşdırmalar Mərkəzi**
**VÖEN - 1301595701**
**İBAN: AZ75CTRE00000000000005478301**
**Büdcə Səviyyəsinin kodu: Fond 7**
**Büdcə Təsnifatının kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq xidmət üzrə lisenziyası;*
- *iddiaçının tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **14 dekabr 2018-ci il tarixdə saat 17:00-dək**, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **21 dekabr 2018-ci il tarixdə saat 17:00-dək** Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaq.

İddiaçıların təklif zərfləri **24 dekabr 2018-ci il tarixdə saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən Elektrik qurğuları və avtomobil ehtiyat hissələrinin satın alınması məqsədilə keçirilmiş açıq tenderin LOT-1 (Akkumulyatorların satın alınması) üzrə qalibi Tender komissiyasının qərarına əsasən "Gatdigital" MMC şirkəti elan olunmuş və şirkətlə satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***


# Ermənistan diplomatiyasından yeni qalmaqal

*Rusiyalı jurnalistin Paşinyanı tənqid etməsi səfirliyi özündən çıxarıb*

Ermənistanın Rusiyadakı səfirliyi yeni qalmaqala imza atıb. Bu dəfə hədəf rusiyalı jurnalist, "Qovorit Moskva" radiostansiyasının baş redaktoru Sergey Dorenko olub. Erməni diplomatları iddia edirlər ki, Dorenko bir neçə gün əvvəl radiostansiyanın efirində çıxış edərkən Ermənistan hökumətinin başçısı Nikol Paşinyanın timsalında erməni xalqını təhqir edib.

Qalmaqal ondan başlayıb ki, Dorenko Paşinyandan özünü siyasətçi kimi aparmağı tələb edib. Daha doğrusu, jurnalistin fikrincə, erməni siyasətçilərindən biri - Ermənistanın baş naziri gələn ayın əvvəllərində keçirilməsi nəzərdə tutulan parlament seçkiləri ərəfəsində bu və digər məsələyə münasibətdə konkret mövge sərgiləməlidir. Dorenko Paşinyanın Parisdə səfərdə olarkən iki homoseksual erməni uşağı barədə parlamentdə çıxışı zamanı dediklərini xatırladır. Məlum olur ki, Paris mehmanxanasında Paşinyana bir erməni uşağı kofe gətiribmiş. Baş nazir ondan geriyə, Ermənistana qayıtmamağının səbəbini soruşub. Uşağın Paşinyana cavabı belə olub: "Mən kiçik bir şəhərdənəm. Məşuqumla birlikdə oradan çıxıb qaçdıq". Dorenko Paşinyanın iki erməni homoseksualına münasibətini təəccüblə qarşılayır: "Bir-birinə vurulmuş iki erməni uşağı Fransaya qaçıb, çünki onların həyatı dözülməz, ağır olub. Yeri gəlmişkən, hər yerdə kiçik şəhərdə dözülməz olacaq. İndiana ştatında kiçik şəhərdə də iki homoseksualın həyatı dözülməz olacaq. Ona görə də homoseksuallar əsasən iri şəhərlərə gedirlər ki, orada əxlaqı pozulmuş cəmiyyətdə itə bilsinlər. Paşinyan deyir: mən bu uşaq barədə düşünməyə başladım... o bu uşaq barədə düşünür. Hesab edirəm ki, sağlam cəmiyyətlərin əksəriyyəti ailə kimi ənənəvi təsisatlar vasitəsilə strukturlaşmağa çalışır. Rus cəmiyyəti istisna deyil. Erməni cəmiyyəti istisna deyil. Yəni ermənilər bütövlükdə mühafizəkardırlar.

Rusiyalı jurnalistin fikrincə, Paşinyanın Parisdə erməni homoseksualı barədə dedikləri onun siyasətçi kimi imicinə zərbə vurur. Dorenko hesab edir ki, siyasətçi konkret mövqe tutmalı, ictimaiyyəti çaşdırmamalıdır: "Baş nazir deyəndə ki, qəşəng uşaqdır, gözəl gözləri var və s., Paşinyan barədə düşünməyə başlayırıq. Paşinyan parlamentdə çıxış edib deyir: neyləyək, onları tankların altına atıb əzək?" Dorenko hesab edir ki, Paşinyan kimi gah nala, gah mıxa vuran adamları siyasətçi saymaq olmaz. Onun fikrincə, baş nazir siyasətçidirsə, ya homoseksualları dəstəkləməli, ya da ənənəvi dəyərlərə tərəfdar çıxmalıdır.

Ermənistanın Moskvadakı səfirliyi rusiyalı jurnalistin fikirlərinə sərt reaksiya vermişdir. Səfirliyin bəyanatında deyilir ki, jurnalist efir etikasının bütün normalarını yaddan çıxarıb, ayrı-ayrı şəxslərin sifarişi ilə Ermənistanın və onun rəhbərliyinin ünvanına təhqiramiz fikirlər səsləndirib. Diplomatik nümayəndəlik Dorenkonu dezinformasiya yaymağı dayandırmağa, həqiqəti təhrif etməməyə çağırıb və onu hədələməkdən də çəkinməyib: "Dediyiniz hər sözə görə məsuliyyət daşıyacaqsınız".

Öz növbəsində rusiyalı jurnalist səfirliyin bəyanatına münasibət bildirmişdir. O qeyd etmişdir ki, irəli sürdüyü fikirlər ölkə haqqında yox, siyasi prosesin iştirakçılarının bir-birinə zidd hərəkətləri barədə şəxsi rəyidir: "Hesab edirəm ki, əməllər barədə rəy söyləmək haqqım var".

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Dövlət sərhədlərimiz etibarlı mühafizə olunur

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.

DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlərdə 4 İran İslam Respublikası vətəndaşının saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınmışdır.

Belə ki, 21 noyabr 2018-ci il tarixdə "Tehran-Bakı" aviareysi ilə ölkəmizə uçub gələn İran İslam Respublikası vətəndaşları 1969-cu il təvəllüdlü Abdikord Əli Qulamrıza, 1978-ci il təvəllüdlü Ebrahimniaomrani Arzu Qulaməli, 2015-ci il təvəllüdlü Abdikord Afşin Əli oğlu və 2001-ci il təvəllüdlü Abdikord Afaq Əlinin sərhəd nəzarətinə təqdim etdikləri İtaliya pasportları şübhə doğurmuş, dərinləşdirilmiş laborator müayinə nəticəsində saxta olmaları müəyyən edilmişdir.

Araşdırma zamanı saxlanılmış şəxslərin üzərində onlara məxsus İİR pasportları aşkar olunmuş, həmin pasportlara əsasən onların 17.11.2018-ci il tarixdə "Tehran-İstanbul" aviareysi ilə uçmaları və bir gündən sonra geri qayıtmaları müəyyən olunmuşdur. Saxta İtaliya pasportlarını da Türkiyədən almaları ehtimal edilir.

Müvafiq araşdırmalardan sonra saxlanılmış şəxslər gəldikləri istiqamətdə ölkə ərazisindən deportasiya olunmuşlar.

***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## ABŞ Suriyanın şimalında müşahidə məntəqələri yaradacaq



"ABŞ Suriyanın şimalında Türkiyə sərhədi boyunca müşahidə məntəqələri yaradacaq. Bu barədə Pentaqonun başçısı Ceyms Mettis məlumat vermişdir".

Mettisin dediyinə görə, Türkiyənin Suriyada terror hədələri ilə bağlı "qanuni" narahatlığı var və ABŞ bunların hamısını nəzərə alır: "İstəyirik ki, işlədiyimiz zonada nəsə görsək, bu barədə türkləri xəbərdar etmək imkanımız olsun". O qeyd etmişdir ki, ABŞ bu məsələ ilə bağlı Türkiyə ilə sıx əməkdaşlıq edir: "Hərbçilər və Dövlət Departamenti Türkiyə tərəfi ilə intensiv məsləhətləşirlər. Biz Türkiyəyə qarşı yönəlmiş hər bir təhlükəni izləmək niyyətindəyik. Bu o deməkdir ki, biz sərhəd boyunca türkiyəli hərbçilərlə əlaqədə olacağıq".

## Belçikada iğtişaşlar



Belçikanın Nivel şəhərinin yaxınlığında yerləşən neftayırma zavodu rayonunda 400 nəfərin iştirakı ilə nümayişçilərlə polis arasında toqquşma baş vermişdir. Benzinin qiymətinin artırılmasına etiraz əlaməti olaraq "Sarı jiletlər" hərəkatının üzvləri bir neçə gündür zavodu mühasirəyə alıblar. Polisdən verilən məlumata görə, hadisə yerinə 120 asayiş keşikçisi gəlmişdir. Onlara daş, dəmir parçaları və içərisində yandırıcı maddə olan butulkalar atılmışdır. 30 etirazçı saxlanmışdır.

Belçikanın daxili işlər naziri Yan Yanbon dünən səhər Mons şəhərini paytaxt Brüssellə birləşdirən E19 avtomobil yolunun hər iki istiqamətdə bağlandığını təsdiqləmişdir. "Sarı jiletlər"in aksiyası üzündən 250-yə yaxın yük maşını yolda qalmışdır. Toqquşmalar zamanı RTBF telekanalının operatoru yaralanmışdır.

## Qvatemalada keçmiş hərbçi 5160 il iş aldı



Qvatemalada 1960-1996-cı illərdə baş vermiş vətəndaş müharibəsi dövründə dinc sakinlərin kütləvi qətlində iştirak etmiş keçmiş hərbçi Santos Lopes Alonso 5160 il müddətinə azadlıqdan məhrum olunmuşdur. Bu barədə EFE agentliyi xəbər verir.

Məhkəmə sübuta yetirmişdir ki, Lopes Alonso qiyamçılara qarşı cəza əməliyyatları həyata keçirən xüsusi elit ordu dəstəsinin tərkibində olmuşdur. 1982-ci ilin dekabrında o, Peten departamentinin Dos-Erres kəndində dinc sakinlərin qətlində iştirak etmişdir. Lopes Alonso 171 sakini öldürməkdə təqsirli bilinmişdir. O, hər qurban üçün 30 il iş almışdır. Daha 30 il isə ona insanlığa qarşı cinayətlərə görə əlavə olunmuşdur. Cəzanın bu cür böyük müddətinə baxmayaraq, Lopes Alonso Qvatemala Cinayət Məcəlləsində nəzərdə tutulduğu kimi, maksimum 50 il həbsxanada yatacaq.

36 illik vətəndaş müharibəsi zamanı Qvatemalada 250 min nəfərə yaxın adam həlak olmuş, yaxud itkin düşmüşdür.

## Fransanın Reyunyon adasında komendant saatı tətbiq edildi



Fransa artıq bir həftədir xalq etirazları və kortəbii nümayişlər ritmində yaşayır. Vətəndaşlar hakimiyyət orqanlarının siyasi və iqtisadi siyasətindən narazıdırlar. Aksiyalar ölkəyə məxsus ərazilərdən birini - Reyunyon adasını da bürümüşdür. Zorakılığın qarşısını almaq üçün orada komendant saatı tətbiq edilmişdir. Prezident Emmanüel Makron bildirmişdir ki, ictimai asayişin pozulduğu hər bir yerdə bu cür praktikadan istifadə olunacaq. "Sarı jiletlər" adlandırılan hərəkatın iştirakçıları Fransada sürücülər üçün məcburi olan işıq əks etdirən jilet geyirlər. Hərəkat sosial şəbəkələrdə yanacağın qiymətinin artmasına cavab kimi yaranmışdır. İştirakçıların dediklərinə görə, nümayişlərin həmkarlar ittifaqlarına heç bir aidiyyəti yoxdur və bu, əsl xalq hərəkatıdır. Hiddətlənmiş avtomobilçilər noyabrın 17-də ayağa qalxmışlar.

Nümayişlərin bir neçə günü ərzində 500 nəfərdən çox adam zərər çəkmişdir. Onlardan 17-si ciddi xəsarət almışdır.

## Meksikada 213 miqrant tutuldu



Meksika təhlükəsizlik qüvvələri Mərkəzi Amerikadan ABŞ-a istiqamət götürmüş qeyri-leqal miqrant karvanından 213 nəfəri tutub saxlamışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Meksika Milli Miqrasiya İnstitutundan verilən məlumata görə, bütün qaçqınlar Mərkəzi Amerika ölkələrinin vətəndaşlarıdır. Güman ki, heç bir sənədi olmadığından miqrantları geriyə - vətənə qaytaracaqlar. Onlar Qvatemala ilə sərhədin yaxınlığında saxlanmışlar.

Mərkəzi Amerikadan olan minlərlə qaçqın zorakılıqdan, yoxsulluqdan və işsizlikdən xilas olmaq üçün şimala üz tutur. BMT-nin məlumatına görə, ABŞ sərhədinə doğru 7 min nəfərdən ibarət miqrant karvanı hərəkət edir. Onların arasında 2300 uşaq var.

# Sinoptiklər xəbərdarlıq edirlər...

Sinoptiklər ölkə ərazisində gözlənilən qeyri-sabit və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, respublika ərazisində qeyri-sabit hava şəraitinin noyabrın 25-dək davam edəcəyi gözlənilir.

Bakıda və Abşeron yarımadasında noyabrın 23-də arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Noyabrın 23-ü axşamdan 24-ü səhərədək şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi bildirilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 23-ü axşamdan 24-ü gündüzədək Abşeron yarımadasında qısa müddət ərzində atmosfer təzyiqinin xeyli yüksəlməsi fonunda xəzri küləyinin güclənəcəyi gözlənilir ki, bu da bəzi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Bəsti Abidovaya əzizləri

**İSAQ MƏMMƏDOV və LEYLA MUSTAFAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ələsgər və Ələkbər Tağıyevlər

**NƏRİMAN HƏBİB OĞLU YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əli oğlu Əliyev görkəmli hüquqşünas

**NƏRİMAN HƏBİB OĞLU YUSİFOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8398
Sifariş 3470